QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

# SƏS

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 022 (5742) **2 fevral** 2019-cu il. "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiyməti 40 qəpik**

# İlham Əliyev: "Bu gün Azərbaycan gəncləri cəmiyyətimizin fəal hissəsidir"

## *Azərbaycan Gənclərı Gününə həsr olunmuş respublika toplantısı keçirilib*



Səh 2

**Prezident İlham Əliyev Ukraynada yaşayan soydaşlarımız Umud və Sabir Şirinov qardaşlarını "İgidliyə görə" medalı ilə təltif edib**



4

**Ölkəmizdə məktəbəqədər tərbiyə müəssisələri yenidən qurulur**



5

**"Qara pullar hesabına Azərbaycanda qarşıdurma yaratmağa cəhd edirlər"**



6

**Milli Məclisin yaz sessiyasının ilk plenar iclası keçirilib**



7

**Vüqar Səfərli: "Məqsəd qəzetlərin fəaliyyətini müasir dövrün tələblərinə uyğunlaşdırmaqdır"**



6

**Rusiyadan böyük məbləğlərdə pullar Əli Kərimli üçün göndərilirmiş**



7

6

**"Qərar müasir qəzetçilik modelinin daha da təkmilləşdirilməsinə xidmət edir"**



6

**Əflatun Amaşov: "Bu məlumatların heç bir əsası yoxdur"**



16

**İspaniya kubokunda növbəti "El-Klassiko"!**



# İlham Əliyev: “Bu gün Azərbaycan gəncləri cəmiyyətimizin fəal hissəsidir”

*Azərbaycan Gəncləri Gününə həsr olunmuş respublika toplantısı keçirilib*

**Fevralın 1-də Bakı Konqres Mərkəzində Azərbaycan Gəncləri Gününə həsr olunmuş respublika toplantısı keçirilib. AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva tədbirdə iştirak ediblər. Dövlətimizin başçısı tədbirdə nitq söyləyib. Prezident İlham Əliyev öz nitqində qeyd edib ki, Azərbaycanda gənclər siyasəti məhz 1994-cü ildən icra edilməyə başlanılmışdır:**



“1997-ci ildə ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycanda Gənclər Günü təsis edildi. Ulu Öndər gənclərə həmişə böyük qayğı, sevgi ilə yanaşırdı. Çox yaxşı bilirdi ki, ölkəmizin gələcəyi gənclərin əlində olacaq. Azərbaycanda müasir gənclər siyasəti isə 1994-cü ildə başlamışdır. O il Ulu Öndər Gənclər və İdman Nazirliyini yaratdı. Gənclər və İdman Nazirliyinin yaradılması çox əlamətdar hadisə idi. Azərbaycanda gənclər siyasəti məhz 1994-cü ildən icra edilməyə başlanılmışdır.

O illər çox ağır illər idi. Azərbaycan böhrandan təzə-təzə çıxırdı. Ölkəmizdə iqtisadi vəziyyət çox ağır idi. Ölkəmizdə islahatlara





start verilirdi. Bütün bu çətinliklərə baxmayaraq, Ulu Öndərin çox düzgün qərarı Azərbaycanda gənclər üçün yeni imkanlar açdı, yeni şərait yaratdı. Ondan sonra da müvafiq qərarlar qəbul edilmiş, göstərişlər verilmişdir. 1999-cu ildə dövlət gənclər siyasəti haqqında Fərman imzalanmışdır. Ondan sonrakı dövrdə də biz həmişə gənclərə dəstək olmağa çalışmışıq. 2005-ci ildən bu günə qədər üç Dövlət Proqramı qəbul edilmişdir. Bölgələrdə 40-a yaxın Gənclər Mərkəzi yaradılmışdır, 44 Olimpiya İdman Mərkəzi vardır ki, orada məşq edənlərin əksəriyyəti gənclərdir.

Bizim beynəlxalq əlaqələrimiz genişlənir. Gəncə şəhəri 2016-cı ildə Avropa Gənclər Paytaxtı adına layiq görülmüşdür. Biz Azərbaycanda müxtəlif beynəlxalq tədbirlər, o cümlədən 170 ölkədən nümayəndənin iştirak etdiyi Dünya Skaut Hərəkatı Təşkilatının konfransını keçirmişik. Bütün bunlar onu göstərir ki, bu istiqamətdə düzgün addımlar atılır və bundan sonra da atılacaq.

Azərbaycanda gənclərlə bağlı dövlət siyasəti başlayanda mən də gənc idim. O vaxt mənim 32 yaşım var idi. Fürsət düşmüşkən, gənclik illərimdən bir qədər danışmaq istərdim. Mən orta məktəbi Bakıda bitirəndən sonra 1977-ci ildə Moskvaya oxumağa getdim. Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutuna daxil oldum. Beş il orada təhsil aldım, ondan sonra üç il aspiranturada oxudum, dissertasiya müdafiə etdim və mən institutda dərs deməyə başlayanda 23 yaşım var idi. İşimdən də çox razı idim. Mənim işimə heç bir irad yox idi, ta 1990-cı ilə qədər. Həmin il xalqımıza qarşı qanlı cinayət törədilmişdir, Qanlı Yanvar faciəsi baş vermişdir.

O vaxt atam Heydər Əliyev təqaüdçü idi. Yanvarın 21-də Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gələrək öz səsini bütün dünyaya çatdırdı. Mən də onun yanında idim. Orada mətbuat konfransı keçirdi və Sovet İttifaqını, Kommunist Partiyasını və onun rəhbərliyini qətiyyətlə pislədi, bu dəhşətli cinayəti bütün dünyaya çatdırdı. Çünki o vaxt bizim sözümüz dünyaya çatmırdı. Hələ Sovet İttifaqı dövrü idi. Sovet İttifaqının dağılmasına hələ iki il vaxt var idi. Heydər Əliyev kimi tanınmış şəxsiyyətin bu məsələ ilə bağlı dediyi sözlər dərhal dünyaya çatdırıldı və dünya ictimaiyyəti bundan xəbər tutdu. Bu addım həm təbii, həm də çox cəsarətli idi. Çünki Azərbaycan xalqı, onun maraqları Heydər Əliyev üçün hər şeydən üstün idi. Bir daha bildirməliyəm ki, Sovet İttifaqının dağılmasına hələ iki il vaxt var idi və heç kimin ağlına gələ bilməzdi ki, Sovet İttifaqı nə vaxtsa dağılacaq. Yəni, Heydər Əliyev sovet sistemini dərindən bilən insan kimi bu addımı şüurlu şəkildə atdı. Bilirdi ki, ona qarşı çox böyük təzyiqlər, təqiblər başlanacaq. Belə də oldu. Bizdə olan məlumata görə, Moskvada sovet rəhbərliyi onun çıxışından çox hiddətlənmişdi və göstəriş vermişdi ki, o, həbs olunsun.

Biz müxtəlif yollarla çalışırdıq ki, o, Moskvadan Bakıya gəlsin. İndi tarixin bu səhifəsini tam açıqlamaq istəmirəm. Ancaq Bakıya gələ bildi. Lakin Bakıda da yaşamağa qoymadılar. Bakıda da ona qarşı çox böyük təzyiqlər göstərildi və o, Naxçıvana gedərək orada yaşamağa başladı. Bir müddətdən sonra xalq onu Naxçıvan Ali Məclisinin sədri vəzifəsinə seçdi.

Müstəqilliyə gedən yol məhz Naxçıvandan başladı. Çünki Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağını dövlət bayrağı kimi məhz Heydər Əliyev Naxçıvan parlamentində qaldırdı və təsis etdi. Azərbaycan Milli Məclisi, - o vaxt Ali Sovet adlandırılırdı, - qarşısında vəsatət qaldırılmışdı ki, bu bayraq dövlət bayrağı kimi qəbul edilsin.

**Ardı Səh. 3**

# İlham Əliyev: “Bu gün Azərbaycan gəncləri cəmiyyətimizin fəal hissəsidir”

## *Azərbaycan Gəncləri Gününə həsr olunmuş respublika toplantısı keçirilib*

**Əvvəli-Səh-2**

Mənim taleyimdə bundan sonra dəyişiklik baş vermişdir. Mən oxuduğum və dərs dediyim institutdan çıxarıldım. Mənim işimə heç bir irad yox idi. Məni işdən çıxaranda rəhbərlik belə də demişdi ki, Sizə bizim iradımız yoxdur. Ancaq Heydər Əliyev artıq Sovet İttifaqında düşmən kimi tanınır və düşmənin oğlu belə institutda dərs deyə bilməz. Mənim üçün işsizlik dövrü



başladı. Bir neçə ay işsiz qaldım. Müxtəlif yerlərdə iş axtarırdım, müraciət edirdim. Amma biləndə ki, Heydər Əliyevin oğluyam, əlbəttə ki, məni heç kim işə götürmürdü.

O vaxt Sovet İttifaqının tarixində iqtisadi sahədə müəyyən liberallıq da müşahidə olundu, özəl biznesə icazə verildi. Mən məcbur qalıb özəl bizneslə məşğul olmağa başladım. Qısa müddət ərzində çox uğurlu fəaliyyət göstərdim və öz həyatımı yenidən qurmuş oldum. İşimdən razı idim. O vaxt Moskvada yaranmaqda olan Azərbaycan icmalarının fəaliyyətinə dəstək verirdim. Yadımdadır ki, o vaxt Moskvada Azərbaycan Vətəndaş Assambleyası yaradılmışdı. O Assambleyanın qurucularından biri də mənəm. Bir biznesmen kimi Assambleyanın fəaliyyətinə ən çox maliyyə dəstəyi verən də mən olmuşam. O vaxt Moskvada Azərbaycan məktəbi təsis edilmişdi. Moskvada yaşayan azərbaycanlılardan birincisi, o məktəbə maliyyə dəstəyi verən də mən olmuşam.

Mən bunları ona görə demirəm ki, özümü tərifləyim. Sadəcə olaraq, bu, tarixdir və mən istərdim ki, bizim gənclərimiz bunu bilsinlər. Bilsinlər ki, hətta ən ağır dövrdə, ən çıxılmaz vəziyyətdə onlar həmişə ümidli olmalıdırlar, naümid olmamalıdırlar. Həmişə bilməlidirlər ki, onların taleyi onların öz əllərindədir. Yenə də deyirəm, o vaxt Sovet İttifaqının dağılması haqqında heç kim düşünmürdü. Mən çox yaxşı başa düşürdüm ki, əgər sovet rəhbərliyi atamı düşmən kimi tanıyırsa, mənim üçün bu cəmiyyətdə yer tapmaq çox çətin olacaq. Ancaq tale belə gətirdi ki, vəziyyət dəyişdi və bu gün Azərbaycan müstəqil dövlətdir. Bu, bizim ən böyük xoşbəxtliyimizdir. Bir daha demək istəyirəm ki, insanlar ən ağır vəziyyətdə də həmişə ümidli olmalıdırlar.



Bu gün Azərbaycan gəncləri müstəqillik dövründə yaşayırlar. Bu, böyük xoşbəxtlikdir. Bu gün hər bir vətənpərvər azərbaycanlı haqlı olaraq fəxr edir ki, o, müstəqil Azərbaycan Respublikasının vətəndaşıdır. Ölkəmizin hərtərəfli inkişafında gənclərimizin çox böyük rolu vardır. Gənclər müxtəlif sahələrdə çox uğurla fəaliyyət göstərirlər, ölkəmizin ümumi inkişafına böyük töhfə verirlər.

Gənclər üçün əsas istiqamət, əlbəttə ki, təhsildir. Mən bütün gənclərə üz tutub deyirəm ki, təhsilə çox böyük fikir versinlər. Çünki bugünkü dünyada bilik, savad ön plandadır. Bu gün dünya o qədər sürətlə inkişaf edir, texnologiyalar o qədər sürətlə qabağa gedir ki, bilik, savad olmadan həyatda öz layiqli yerini tapmaq çox çətindir. Gənclər peşəkar olmalıdırlar. İstənilən sahədə işləyən gənclər çalışmalıdırlar ki, öz peşəkarlıqlarını artırsınlar. Bizim gənclərimiz milli ruhda, vətənpərvərlik ruhunda tərbiyə almalıdırlar. Əsrlər boyu bizim xalqımız başqa dövlətlərin, imperiyaların tərkibində yaşamışdır. Ancaq biz milli mənsubiyyətimizi, adət-ənənələrimizi qorumuşuq. Nəyə görə?! Ona görə ki, biz həmişə öz dəyərlərimizə bağlı olmuşuq və bugünkü gənclər daim bu məsələyə çox böyük diqqət yetirsinlər. Azərbaycan dəyərləri bizim üçün ən başlıca dəyərlərdir. Bizi bir xalq kimi, millət kimi qoruyan, əsrlər boyu assimilyasiyadan qoruyan məhz bizim dəyərlərimiz, ana dilimiz, mədəniyyətimiz, ədəbiyyatımız, incəsənətimiz olubdur. Azərbaycan gəncləri mütləq milli ruhda tərbiyə almalıdırlar ki, gələcəkdə dövlət maraqlarını, xalqımızın milli maraqlarını layiqincə qoruya bilsinlər. Hesab edirəm ki, bu iki əsas amil hər bir gənc üçün çox vacibdir.



Mən bir daha demək istəyirəm ki, bu gün Azərbaycan gəncləri cəmiyyətimizin fəal hissəsidir. Biz haqlı olaraq gənclərimizlə fəxr edə bilərik. Bizim gənclərimiz torpaq uğrunda, Vətən uğrunda vuruşurlar. Bizim şəhidlərimizin böyük əksəriyyəti gənclərimiz olubdur. Allah bütün şəhidlərimizə rəhmət eləsin! Bizim gənclərimiz hərbi qələbələrimizi şərtləndiriblər. Aprel döyüşləri bizim şanlı tarixi qələbəmizdir və bu əməliyyatlarda iştirak edənlərin mütləq əksəriyyəti gənclərdir. Biz bu əməliyyat nəticəsində uzun illər ərzində işğal altında qalan torpaqları işğalçılardan azad etdik. O torpaqlarda - Lələtəpədə, Füzuli, Cəbrayıl, Ağdərə rayonlarının dağlarında Azərbaycan bayrağını ucaltdıq. Bu, böyük tarixi qələbədir. Bu qələbə bir daha onu göstərdi ki, Azərbaycan xalqı işğalla heç vaxt barışmayacaq, Azərbaycan əsgəri, Azərbaycan zabiti Vətən uğrunda, torpaq uğrunda canından keçməyə hazırdır. Bu qələbə ermənilərin uzun illər ərzində yaratdıqları mifi tamamilə darmadağın etdi. Bu qələbə göstərdi ki, biz döyüş meydanında da onlardan üstünük. Bu qələbə göstərdi ki, ən əlverişsiz hərbi mövqelərdən əks hücum əməliyyatı apararaq biz çox strateji mövqelərə sahib olduq. Bu gün ordu quruculuğu istiqamətində atılan addımlar təbiidir, zəruridir. Çünki biz müharibə şəraitində yaşayırıq, müharibə hələ bitməyib. Biz hər an hazır olmalıyıq ki, torpaqlarımızı işğalçılardan azad edək. Bizim gənclərimiz bu gün sərhədlərimizi qoruyur. Sərhədçilərimizin böyük əksəriyyəti gənclərdir. Bizim gənclərimiz ictimai asayişi qoruyur. Bu gün Azərbaycan dünya miqyasında ən təhlükəsiz ölkələrdən biridir. Bizim gənclərimiz müxtəlif sahələrdə uğurla fəaliyyət göstərir.”



Dövlət başçısı qeyd edib ki, bizim gənclərimiz idmanda böyük qələbələr qazanırlar, başımızı uca edirlər. Hər bir idman qələbəsi hər bir vətənpərvər vətəndaşı sevindirir, ruhlandırır:

“Görün, biz hansı böyük nailiyyətlərə çatdıq. Son Yay Olimpiya Oyunlarında medalların sayına görə Azərbaycan dünya miqyasında 14-cü yerdə idi. Bu, tarixi qələbədir. Bu qələbəni müstəqillik dövründə doğulmuş və boya-başa çatmış gənclər əldə ediblər. Biz bunu heç vaxt təsəvvür edə bilməzdik. İndi burada əyləşən gənclər sovet dövrünü xatırlamırlar, çoxları o vaxt heç doğulmamışdı. Ancaq o vaxt Azərbaycan idmanı sovet məkanında ön planda deyildi. Amma bu gün biz dünya miqyasında belə tarixi qələbələr qazanmışıq. Avropa Oyunlarında komanda hesabında ikinci yeri, İslam Həmrəyliyi Oyunlarında birinci yeri tutmuşuq. Bu, bir daha göstərir ki, bizim gənc idmançılarımız nə qədər peşəkardır, iradəlidir, vətənpərvərdir.

Azərbaycan gəncləri fəaldır, vətənpərvərdir, biliklidir, savadlıdırlar. Gənclər, mən sizə inanıram, güvənirəm. Sizi qarşıdan gələn Gənclər Günü münasibətilə bir daha təbrik edirəm və gənclərə “Eşq olsun!” deyirəm.”

Sonra gənclər siyasətinə həsr olunan film nümayiş olundu. Daha sonra Azərbaycan Gənclər Təşkilatları Milli Şurasının sədri Məryəm Məcidova, Qarabağ qazisi Kamil Musəvi, Azərbaycan Dövlət İqtisad Universitetinin müəllimi, “Human Foundation”un təsisçisi Fəridə Əsgərzadə, YAP Gənclər Birliyinin sədri Seymur Orucov, Regional İnkişaf İctimai Birliyinin nümayəndəsi Aydan Ramazanova, Naxçıvan Müəllimlər İnstitutunun müəllimi, tələbə gənclər təşkilatının sədri Ayxan Hüseynli, Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının tələbəsi Ülkər Əsədova, şəhid polkovnik-leytenant Raqif Orucovun oğlu Aqşin Oruclu, “ASAN” könüllüsü Emilya Bayramova çıxış etdilər.



Sonra bir qrup gəncin təltif olunması mərasimi keçirildi. Tədbir Azərbaycan Respublikasının dövlət himninin səsləndirilməsi ilə yekunlaşdı.

# "Azərbaycan-Rusiya ikitərəfli münasibətləri bütün sahələrdə uğurla inkişaf edir"

## *Prezident İlham Əliyev Rusiyanın Qaraçay-Çərkəz Respublikasının başçısının rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib*



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 1-də Rusiya Federasiyasının Qaraçay-Çərkəz Respublikasının başçısı Rəşid Temrezovun rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı Azərbaycan-Rusiya ikitərəfli münasibətlərinin bütün sahələrdə uğurla inkişaf etdiyini vurğulayaraq, iki ölkə prezidentləri arasında yüksək səviyyədə qarşılıqlı etimadın mövcud olduğunu bildirdi və bunun əlaqələrimizin genişlənməsində xüsusi rol oynadığını dedi. Prezident İlham Əliyev, eyni zamanda, Azərbaycan Respublikasının Rusiya Federasiyasının ayrı-ayrı regionları, o cümlədən ümumi tarixi-mədəni dəyərlərə mailik olduğumuz Şimali Qafqaz regionu və eləcə də Qaraçay-Çərkəz Respublikası ilə sıx əməkdaşlığının həyata keçirilməsinin Azərbaycan-Rusiya münasibətlərinin inkişafına töhfə verdiyini dedi. Dövlətimizin başçısı Azərbaycan ilə Rusiyanın müxtəlif regionları arasında əlaqələrin uğurlu inkişafında ötən il iki ölkə prezidentlərinin iştirakı ilə Bakıda keçirilən IX Azərbaycan-Rusiya Regionlararası Forumunun önəmini qeyd etdi. Prezident İlham Əliyev Rəşid Temrezovun ölkəmizə səfərinin səmərəli və uğurlu keçəcəyinə əminliyi ifadə etdi.

Azərbaycan Prezidenti ilə görüşdən böyük məmnunluq duyduqlarını deyən Qaraçay-Çərkəz Respublikasının başçısı Rəşid Temrezov Azərbaycan-Rusiya ikitərəfli münasibətlərinin inkişafında regionlararası qarşılıqlı fəaliyyətin rolunu qeyd edərək, bu gün Bakıda biznes nümayəndələri arasında keçiriləcək görüşün əhəmiyyətini vurğuladı. O bildirdi ki, Rusiyanın Qaraçay-Çərkəz regionu ilə Azərbaycan arasında iqtisadi əməkdaşlığın həyata keçirilməsi üçün qarşılıqlı maraq mövcuddur və bunun üçün yaxşı imkanlar var. Rəşid Temrezov mədəni və humanitar əlaqələrin də yüksək səviyyədə olduğunu bildirərək, bunun münasibətlərimizin inkişafına öz töhfəsini verdiyini vurğuladı.

## Rəsmi xronika

Azərbaycan Prezidenti İlham Əliyev Sabir və Umud Şirinov qardaşlarının "İgidliyə görə" medalı ilə təltif edilməsi haqqında Sərəncam imzalayıb. Sərəncamda qeyd olunur ki, həyatları təhlükəyə məruz qalmış insanların xilası zamanı göstərdikləri şəxsi şücaətə görə Sabir Adil oğlu Şirinov və Umud Adil oğlu Şirinov "İgidliyə görə" medalı ilə təltif edilsinlər.

* * *

Prezident İlham Əliyev gənclər siyasəti sahəsində fəallığı ilə fərqlənən şəxslərin təltif edilməsi haqqında Sərəncam imzalayıb.

* * *

Azərbaycan Prezidenti İlham Əliyev 2019-cu il Gənclər üçün Prezident mükafatlarının verilməsi haqqında Sərəncam imzalayıb.

* * *

Prezident İlham Əliyev Azərbaycan Dövlət Aqrar Universitetinin yeni tədris korpusunun tikintisi və avadanlıqlarla təchizatına dair tədbirlər haqqında Sərəncam imzalayıb.

* * *

Prezident İlham Əliyev Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 30 iyun tarixli 518 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi haqqında Əsasnamə"də dəyişiklik edilməsi və "Azərbaycan Respublikasında dövlət daktiloskopik qeydiyyatı haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 15 iyul tarixli 374 nömrəli Fərmanının ləğvi haqqında Fərman imzalayıb.

* * *

Prezident İlham Əliyev Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 27 sentyabr tarixli 935 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Dövlət orqanlarında, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərdə və büdcə təşkilatlarında kargüzarlığın aparılmasına dair Təlimat"da dəyişiklik edilməsi haqqında Fərman imzalayıb.

# Prezident İlham Əliyev Ukraynada yaşayan soydaşlarımız Umud və Sabir Şirinov qardaşlarını "İgidliyə görə" medalı ilə təltif edib



Fevralın 1-də Bakı Konqres Mərkəzində Azərbaycan Gəncləri Gününə həsr olunmuş respublika toplantısı çərçivəsində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Ukraynada yaşayan soydaşlarımız Umud və Sabir Şirinov qardaşları ilə görüşüblər. AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı həyatları təhlükəyə məruz qalan insanların xilası zamanı göstərdikləri şəxsi şücaətə görə onları "İgidliyə görə" medalı ilə təltif edib. Şirinov qardaşlarını salamlayan Prezident İlham Əliyev deyib ki, onların bu bu qəhrəmanlığı Azərbaycan xalqı haqqında daha da dolğun təsəvvür yaradılmasına xidmət göstərir:

- Vətənə xoş gəlmisiniz. Sizi təbrik edirəm. Çox böyük şücaət göstərmisiniz. Köməksiz vəziyyətdə olan insanları xilas etmisiniz. Öz həyatınızı risk altına salmısınız. Bu, doğrudan da çox böyük əks-səda doğurub. Əlbəttə ki, sizin bu qəhrəmanlığınız Azərbaycan xalqı haqqında daha da dolğun təsəvvür yaradılmasına xidmət göstərir. Doğrudan da xalqımızı layaqətlə təmsil etmisiniz. Mən sizi dəvət etdim və sizi dövlət mükafatı ilə - "İgidliyə görə" medalı ilə təltif edirəm.

Sonra Prezident İlham Əliyev medalları təqdim etdi. Daha sonra Şirinov qardaşları hadisə barədə danışdılar.

Umud Şirinov:

-Biz işdən qayıdırdıq, yolda yük maşınının qoşqusu aşmışdı, amma elə bildik ki, yolu tutmayıb. Yaxınlaşanda gördük ki, artıq gecdir, yol təmiz tutulmuşdu. Biz birtəhər keçdik, az qala özümüz də qəzaya düşmüşdük. Biz yanan "KİA" maşınını görməmişdik. Biz avtomobilimizi saxlayıb buraya yığılmış adamlara iradımızı bildirdik ki, niyə xəbərdaredici nişan qoymamısınız. Heç yarım dəqiqə keçməmişdi ki, mən uşaq səsi eşitdim. Yolun kənarı çox çökəklik idi, görünmürdü. Uşaq səsi eşidəndə baxıb gördüm ki, bir maşın yanır, səs də oradan gəlir. Artıq salon təmiz yanmışdı. Dedim bəs niyə dayanmısınız? Dedilər ki, qapıları aça bilmədik, maşına baxdıq, qazla işləyir, qaz balonu var, partlaya bilər, cəhd edə bilmədik, məsləhət görmürük. Biz də qapını aça bilmədik, sonradan sürücü özü bizə dedi ki, uşağa görə qapıların mərkəzi qıfılını bağlayıbmış. Biz maşının qapılarını heç cür aça bilmədik. Gördük maşın təmiz yanır. Uşağın atası və anası yıxılı vəziyyətdə idi. Üç yaşlı uşaq qışqırırdı. Biz avtomobilin yük yerinin qapısını qırdıq, uşağı və anasını çıxardıq. Biz tələsir, ehtiyat edirdik ki, qaz balonu partlaya bilər. Mən uşağı çıxaranda kömək istədim. Yolda 25-30 nəfər dayanmışdı. Kömək istədim, heç kim yaxın durmadı. Mən qardaşıma dedim ki, bizim də övladımız var, indicə balon partlayacaq. Alovun ona çatmasına bir qarış qalıb. Sürücü komada idi, tərpənmirdi, oturacaqların arasında sıxılmış vəziyyətdə qalmışdı. Biz oturacaqları qırdıq. Sağ olsun qardaşım, dedi ki, gəl risk edək, onu da çıxaraq. Qadın yalvarırdı ki, ərini də çıxaraq. Uşaq da deyirdi ki, xahiş edirəm atamı da xilas edin. Artıq biz özümüz haqqında düşünmürdük, həyatımızı riskə qoyub kişini də çıxardıq. Bundan dəqiqə yarım sonra qaz balonu partladı.

Prezident İlham ƏLİYEV: Siz doğrudan da qəhrəmanlıq göstərmisiniz. Mən bunu eşidəndə dedim ki, mütləq sizi dəvət etsinlər, görüşək, mən sizi "İgidliyə görə" medalı ilə təltif edim.

Şirinov qardaşları: Çox sağ olun, cənab Prezident.

Prezident İlham ƏLİYEV: Sizin kimi gənclər bizim fəxrimizdir.

Şirinov qardaşları: Siz də bizim fəxrimizsiniz.

Sonda xatirə şəkli çəkdirildi.

# Ölkəmizdə məktəbəqədər tərbiyə müəssisələri yenidən qurulur

## *Birinci vitse-prezident Mehriban Əliyeva Bakının Xətai rayonunda yeni inşa olunmuş 6 saylı uşaq bağçasının açılışında iştirak edib*









***Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva fevralın 1-də Daxili İşlər Nazirliyinin Bakı şəhərinin Xətai rayonunda yeni inşa olunmuş 6 saylı uşaq bağçasının açılışında iştirak edib.***

AZƏRTAC xəbər verir ki, Birinci vitse-prezident uşaq bağçasının rəmzi açılışını bildirən lenti kəsdi. Daxili işlər naziri Ramil Usubov məktəbəqədər təhsil ocağında yaradılan şəraitlə tanış olan Birinci vitse-prezident Mehriban Əliyevaya məlumat verdi ki, 6 saylı uşaq bağçasının inşasına 2017-ci ilin dekabrında başlanılıb. Əsasən əlahiddə çevik polis alayında çalışanların övladları üçün nəzərdə tutulan məktəbəqədər təhsil müəssisəsində 4-ü Azərbaycandilli, 3-ü isə rusdilli bölmə olmaqla 7 qrup fəaliyyət göstərəcək. Burada balacalara ingilis dili də öyrədiləcək. Uşaq bağçasında bir yaş yarımdan beş yaşadək 140 uşağın təlim-tərbiyəsi ilə 46 nəfərdən ibarət peşəkar heyət məşğul olacaq. Şahmat, rəsm dərnəklərinin də fəaliyyət göstərəcəyi ikimərtəbəli məktəbəqədər təhsil müəssisəsinin otaqları və dəhlizləri uşaqların sevimli nağıl qəhrəmanlarının şəkilləri ilə bəzədilib, qrup otaqları zəruri inventarlarla, mebel dəstləri ilə təchiz edilib. Bir sözlə, uşaq bağçasının əsas binasının planlaşdırma quruluşu uşaqlarla aparılan təlim-tərbiyə işlərinin məzmununa uyğun həll olunub.



Binada təhlükəsizlik məsələləri də ən yüksək səviyyədə həll edilib. Belə ki, videomüşahidə, yanğınxəbərverici, həmçinin qeydiyyata giriş-çıxış sistemləri quraşdırılıb. Uşaq bağçasında akt və idman zalları, geniş yeməkxana da tikilib. Bağça azyaşlı sakinlərin zövqünə uyğun qurulub, onların rahatlığını, istirahətini və ilkin biliklərə yiyələnməsini təmin edəcək.

Gələcəyimiz olan uşaqların təlim-tərbiyəsinin ən yüksək səviyyədə təşkili, onların sağlamlığının qorunması və vətənpərvər, savadlı şəxsiyyət kimi yetişməsi istiqamətində Azərbaycan dövləti çox mühüm layihələr həyata keçirir. Ölkəmizdə məktəbəqədər tərbiyə müəssisələri yenidən qurulur, müasir uşaq müəssisələrinin inşası davam edir. Bu gün uşaq bağçalarında yaradılan şərait uşaqların təlim-tərbiyəsi ilə yüksək səviyyədə məşğul olmağa imkan verir, həmçinin onların bilikli və zəngin dünyagörüşünə malik bir vətəndaş kimi böyüməsində əhəmiyyətli rol oynayır.

Altı saylı uşaq bağçasının yerləşdiyi ərazidə və ətrafda genişmiqyaslı abadlıq-quruculuq işləri görülüb, müxtəlif çiçək və gül kolları, ağaclar əkilib, işıqlandırılma işləri yerinə yetirilib. Burada balacaların istirahəti üçün oyun və idman avadanlığı quraşdırılıb. Bir sözlə, müəssisədə balacaların vaxtlarını maraqlı və səmərəli keçirmələri üçün hərtərəfli imkanlar yaradılıb.

Yeni inşa edilən bağça ilə tanış olan Birinci vitse-prezident Mehriban Əliyeva məktəbəqədər təhsil müəssisəsinin işinə uğurlar arzuladı. Birinci vitse-prezident Mehriban Əliyeva uşaqlarla xatirə şəkli çəkdirdi.

# Vüqar Səfərli: "Məqsəd qəzetlərin fəaliyyətini müasir dövrün tələblərinə uyğunlaşdırmaqdır"



***Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun Müşahidə Şurasının yanvarın 31-də keçirilmiş iclasında Fondun 2019-cu ilin II rübü üçün KİV-lərə maliyyə yardımı müsabiqəsinin elanında qəzetlərin tirajı və yayımı ilə bağlı şərtlərə dəyişikliklərin edilməsi bəzi media qurumlarında və sosial şəbəkələrdə reallığı əks etdirməyən yanlış mülahizələrə səbəb olub.***

Fondun icraçı direktoru Vüqar Səfərli Müşahidə Şurasının son iclasında qəbul olunmuş qərarla bağlı Trend-ə geniş açıqlama verib. Bu dəyişikliklərin yeni dövrün obyektiv tələbindən irəli gəldiyini vurğulayan icraçı direktor bildirib ki, Fondun fəaliyyətdə olduğu 10 il müddətində Müşahidə Şurası qəzetlərə maliyyə yardımının ayrılması ilə bağlı şərt və meyarlara dövrün tələbindən irəli gələn dəyişikliklər edib:

"Fond yeni yaranarkən KİV-lərə maliyyə yardımının ayrılması üçün müəyyənləşdirilmiş başlıca şərtlərdən biri də qəzetlərin gündəlik tirajının minimum 1500, gündəlik satış və abunəsinin cəminin isə minimum 500 olması idi. Sonrakı mərhələdə qəzetlərin daha da inkişaf etdirilməsi zərurəti ilə bağlı bu şərtlərə yenidən baxıldı. 2011-ci ildə gündəlik satış və tiraj müvafiq olaraq 750 və 2000, 2014-cü ildən etibarən isə yayım 1000, tiraj 2500 müəyyən edildi. Göründüyü kimi, son 5 ildə - 2014-cü ildən Fondun Müşahidə Şurası KİV-lərə maliyyə yardımı müsabiqəsinin şərtlərində tiraj və yayımla bağlı heç bir dəyişiklik etməyib. Lakin internet mediasının sürətlə inkişaf etdiyi hazırkı mərhələdə Fondun maliyyə yardımı ayırdığı qəzetlərin istər məzmun və forma, istərsə də keyfiyyət baxımından müasir tələblərə cavab verməsi üçün şərtlərə yenidən baxılması zərurəti yaranmışdı".

İcraçı direktor Fondun Müşahidə Şurasının son iclasında müsabiqə şərtlərinə edilmiş dəyişikliklər barədə də ətraflı məlumat verib: "Fondun Müşahidə Şurasının son iclasında qəbul olunmuş qərara əsasən, 2019-cu ilin II rübündə Fondun KİV-lərə maliyyə yardımı müsabiqəsində yalnız son 3 ildə müntəzəm gündəlik nəşr olunan, müsabiqə elan edilən gündən səhifələrinin sayı 16-dan (A3 formatda), tirajı 5000 nüsxədən az olmayan, hər buraxılışından ən azı 2000 nüsxəsi satılan və ya abunə yolu ilə yayılan ictimai-siyasi qəzetlər iştirak edə bilərlər. Eyni zamanda, xarici dillərdə nəşr olunan gündəlik və həftəlik ictimai-siyasi qəzetlər üçün minimum tirajın 3000, minimum satış və abunənin 1500 nüsxə olması nəzərdə tutulur".

V.Səfərli bildirib ki, Fond maliyyə yardımı ayırdığı qəzetlərin rəhbərlərinə hələ 2018-ci ilin ortalarında yeni ildən tiraj və yayımın minimum həddi ilə bağlı şərtlərə yenidən baxılacağı xəbərdarlığını edib: "Məqsəd hansısa qəzetin bağlanması yox, internet media resurslarının sürətlə inkişaf etdiyi hazırkı dövrdə rəqabətə davamlı, ictimai-siyasi proseslərə, ictimai rəyə təsir imkanları olan çap mediasının formalaşdırılmasıdır. Əlbəttə, 2019-cu ilin II rübündə hansı qəzetlərin Fonddan maliyyə yardımı alacağı müsabiqənin yekununda - mart ayının sonlarında bəlli olacaq. Bunun üçün həmin qəzetlərin müsabiqə elan edildiyi gündən sonrakı iki ayda, yəni fevral-mart aylarında müəyyənləşdirilmiş yeni şərtlər çərçivəsində nəşri tələb kimi qoyulub. Əlbəttə, istisna olunmur ki, bu şərtlərə əməl etmək imkanında olmayan aztirajlı və yayımı məhdud qəzetlər maliyyə yardımından kənarda qala bilərlər".

Fondun icraçı direktoru qeyd edib ki, 2019-cu ilin II rübündə tirajı və yayımı müəyyənləşdirilmiş tələblərə cavab verməyən qəzetlərin maliyyələşdirilməsinin dayandırılması obyektiv reallıqdan irəli gələn qaçılmaz qərar olacaq: "Müəyyən edilmiş şərtlərə cavab verməyən qəzetlərin maliyyələşdirilməsinin dayandırılması onların fəaliyyətinin effektsizliyi ilə bağlı ola bilər. Biz istəyirik ki, qəzetlərin yaradıcılıq məhsulları daha rahat və asan formada öz oxucularını tapsın. Əgər jurnalistlərin yazdığı yazılar oxucuya çatmırsa, makulaturaya pul xərcləməyin heç bir mənası yoxdur. Əlbəttə, biz maliyyələşdirilməsi dayandırılan aztirajlı KİV-lərin yaradıcı və texniki heyətinin işsiz qalmasının və ixtisara düşməsinin qarşısını almaq məqsədilə həmin KİV-lərin elektron versiyasına dəstək verəcək, onların oxunaqlı internet qəzetinə çevrilməsinə çalışacağıq".

İcraçı direktor onu da bildirib ki, möhtərəm Prezidentimiz cənab İlham Əliyevin 31 iyul 2008-ci il tarixli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında kütləvi informasiya vasitələrinin inkişafına dövlət dəstəyi Konsepsiyası"na əsasən, ölkə həqiqətlərinin dünya ictimaiyyətinə dolğun və obyektiv şəkildə çatdırılması üçün Fondun əcnəbi dillərdə nəşr olunan media qurumlarına da maliyyə yardımı göstərməsi nəzərdə tutulub: "Fondun başlıca məqsədlərindən biri də ondan ibarətdir ki, Azərbaycanın həm daxildə, həm də xaricdə təbliğatının gücləndirilməsi, yaşanan proseslərin daha dolğun formada dünya ictimaiyyətinə çatdırılması məqsədilə internet qəzetlərin xarici dillərdə elektron variantının yaradılmasına və yayımına dəstək verək. Bir sözlə, Fond hansısa qəzetlərin bağlanması və onlarda çalışan yaradıcı-texniki heyətin ixtisara salınmasına deyil, əksinə, onların fəaliyyətinin müasir informasiya texnologiyalarına və virtual informasiya məkanına uyğunlaşdırılmasına, fəaliyyətlərinin daha dolğun və səmərəli olmasına çalışır. Bu, 2019-cu ildə Azərbaycanda möhtərəm Prezidentimizin həyata keçirdiyi idarəçilik sisteminin təkmilləşdirilməsi, dövlət idarəçiliyinin effektivliyinin, dinamikliyinin və mobilliyinin artırılması kursuna tam uyğundur. Düşünürük ki, Fondun elan etdiyi yeni şərtlər çap mediasının inkişafında da yeni mərhələnin başlanğıcı olacaqdır". Vüqar Səfərli sonda onu da bildirib ki, hazırda Fondun qəzetlərə ayırdığı maliyyə yardımının böyük bir hissəsi onların qəzet kağızı, mətbəə xərcləri, daşıma və yayım xərclərinə sərf olunur: "Odur ki, aztirajlı və çox məsrəfli qəzetlərin internet versiyasının inkişaf etdirilməsinə dəstəyin verilməsi daha səmərəli nəticələr verəcəkdir".

# "Qara pullar hesabına Azərbaycanda qarşıdurma yaratmağa cəhd edirlər"



Milli Məclisin Komitə sədri, Yeni Azəraycan Partiyası icra katibinin müavini Siyavuş Novruzov parlamentin dünən keçirilən iclasında "Siyasi partiyalar haqqında" yeni qanunun qəbulu və ya mövcud qanuna dəyişikliklər haqqında təkliflə çıxış edib. SİA-nın xəbərinə görə, S.Novruzov bildirib ki, bütün dünyada olduğu kimi Azərbaycanda da siyasi partiyaların maliyyə mənbəyi ilə bağlı qərar qəbul olunsa da, bir qrup partiyalar Mərkəzi Seçki Komissiyasına hesabat vermir, bu prosesdən yayınırlar: "Onlar bununla maliyyə dövriyyəsinin olmadığını bildirirlər. Amma əksəriyyəti yanlarında cangüdən, köməkçi gəzdirirlər. Bu azmış kimi "qara pullar" hesabına Azərbaycanda mitinq, yürüş, qarşıdurma yaratmağa cəhd edirlər. Maliyyə mənbəyinin qarşısı alınmasa onlar əməllərindən əl çəkməyəcəklər. Çünki, pul verənlər tapşırıqları həmin şəxslər vasitəsilə həyata keçirirlər".

Deputat söyləyib ki, Azərbaycanda asayişi pozmağa cəhd göstərənlər üçün xalq, Vətən anlayışı yoxdur: "Onlar üçün yalnız maddiyyət anlayışı var. Xaricdə oturub, ermənidən pul alanların da məqsədləri daxildə qarşıdurma yaratmaq istəyənlərlə eynidir. Hesab edirəm ki, hər birimiz onlara qarşı mübarizə aparmalıyıq. Bəzən həmin şəxslər Milli Məclis haqqında mənfi fikirlər söyləyirlər. Amma nədənsə deputatlarımız yaxasını kənara çəkirlər. Hər kəs bilməlidir ki, deyilən sözlər bütün deputatlara şamil olunur. Əgər onlar birini deyirsə, biz onlara qarşı 20 dəfə artığını deməliyik".

S.Novruzov qeyd edib ki, xaricdən Azərbaycana qarşı yönləndirilən şəxslər nəyisə dəyişmək qabiliyyətində deyillər: "Onlar yalnız söyüş söyməyi bacarırlar. Əgər belədirsə, biz də onlara cavab verməliyik. Hətta söyüşü də başqalarının adlarından yazır, mənəvi terror həyata keçirməyə cəhd edirlər. Təbii ki, bu, onların özlərinin deyil, xaricdəki qüvvələrin məhsuldur. Onlar anlamır ki, biz illərdir ki, siyasətlə məşğuluq və onların taktikasını, mexanizmini yaxşı bilirik. Bu yolla bizi fəaliyyətimizdən döndərmək mümkün deyil. Azərbaycan çox uğurla inkişaf edir."

# Əflatun Amaşov: "Bu məlumatların heç bir əsası yoxdur"



"Azərbaycanda 20-dən çox qəzetə maliyyə yardımının dayandırılacağı barədə məlumatların heç bir əsası yoxdur". Bu fikirləri SİA-ya açıqlamasında Mətbuat Şurasının sədri, deputat Əflatun Amaşov deyib. O bildirib ki, məsələlərə obyektiv yanaşmalıyıq: "Dünyanın hər bir yerində yazılı mətbuatın zəifləməsi, bunların əvəzinə onlayn, internet üzərindən yayılan çap mediası, xəbər portallarının daha çox mövqe qazanması sirr deyil və faktdır. Bütün dünyada ictimai fikir internet üzərindən yayımlanan media vasitəsilə həyata keçirilir və yazılı mətbuatı üstələyir". MŞ sədri söyləyib ki, dünyanın ən aparıcı qəzetlərinin belə tirajları getdikcə azalır və onlar internet versiyalarına üstünlük verirlər: "Hətta fəaliyyətlərini birdəfəlik bağlayan qəzetlərə də az rast gəlmirik və onlar öz fəaliyyətlərini onlayn mediada gücləndirirlər". Azərbaycanda da ictimai fikrin əsasən onlayn mediada yayıldığını deyən Ə.Amaşov qeyd edib ki, artıq son 10 ilə yaxın müddətdə KİV-lərə dövlət tərəfindən maliyyə yardımı göstərilir: "Kimlər ki, bu maliyyədən istifadə edib, öz tirajlarını saxlaya və ya artıra bilir, həmin redaksiyalar öz fəaliyyətlərini bundan sonra da davam etdirəcəklər. Son iclasda istər çap, istərsə də abunə və yayımın sayı ilə bağlı konkret rəqəmlərlə əlaqədar qərar qəbul olundu. Hansı KİV-lər bu prinsiplərə əməl edə, öhdəlikləri yerinə yetirə biləcəksə, onlar yenə də fəaliyyətlərini davam etdirəcəklər. Hansı qəzetlər bu öhdəlikləri yerinə yetirməkdə çətinlik çəkəcək onlar öz istəklərinə əsasən, fəaliyyətlərini davam etdirə və ya dayandıra bilərlər". Deputat qeyd edib ki, əgər söhbət dövlət yardımından gedirsə, o zaman biz ölkədəki informasiyaların həm dünya, həm də yerli ictimaiyyətə daha ətraflı şəkildə çatdırılmasını istəyirik: "Bu baxımdan öhdəliklərini yerinə yetirməyən, az tirajlı, satılmayan qəzetlərə maliyyənin azaldılması və ya dayandırılması daha düzgündür. Bundan incimək lazım deyil."

# Bəhruz Quliyev: "Qərar müasir qəzetçilik modelinin daha da təkmilləşdirilməsinə xidmət edir"



"Dünyada inkişaf meyarları və tələbləri atdıqca, bu reallıq qlobal dəyişikliklərə də səbəb olur. Bu mənada, digər sahələri əhatə edən dəyişikliklər informasiya məkanına da müsbət mənada sirayət etməkdədir". Bu fikirləri SİA-ya açıqlamasında "Səs" qəzetinin baş redaktoru Bəhruz Quliyev Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun (KİVDF) Müşahidə Şurasının növbəti iclasında çap mediası ilə bağlı müəyyən qaydaların qəbul edilməsinə münasibətini açıqlayarkən deyib.

Baş redaktorun sözlərinə görə, xüsusilə, qəzetlərdə peşəkarlığın artırılması, daha münasib fəaliyyət istiqamətinin qurulması üçün Fond tərəfindən görülən tədbirlər çap medialarının bağlanması ilə əlaqələndirilməməlidir: "Azərbaycan dünyanın bir parçasıdır və dünyada baş verən proseslərdən kənarda qalması mümkün deyil, bu baxımdan print media və internet media arasında gedən rəqabət də bizdən yan keçmir. Eyni zamanda, qəzetlər də öz aralarında rəqabətdədirlər. Movcud vəziyyətdə Fond tərəfindən müsabiqədə yeni kriteriyaların müəyyənləşməsi isə özünü təsdiq edən qəzetlərin inkişafını daha çox maliyyə yardımı ilə stimullaşdıracaq".

Bəhruz Quliyev onu da vurğulayıb ki, əgər kimlərsə bu qərarı qeyri-ciddi məqsədləri üçün, yəni istədikləri şəkildə ictimai rəyə çatdırmağa çalışacaqlarsa, bu, heç də doğru seçim deyil: "Bunu nə siyasiləşdirmək, nə də ajiotaj yaradaraq, media mənsubları arasında süni çaxnaşmalar yaratmağa da ehtiyac yoxdur. Qəbul edilən qərar müasir qəzetçilik modelinin daha da təkmilləşdirilməsinə xidmət edir".

# Milli Məclisin yaz sessiyasının ilk plenar iclası keçirilib

*Fevralın 1-də Milli Məclisin yaz sessiyasının ilk plenar iclası keçirilib. Milli Məclisin sədri Oqtay Əsədov yaz sessiyasını açıq elan edib. Sonra dövlət himni səsləndirilib.*



Gündəliyin təsdiqindən sonra sədr deyib ki, parlament yaz sessiyasında da dövlətimizin başçısının həyata keçirdiyi daxili və xarici siyasətə uyğun olaraq quruculuq işlərinin hüquqi bazasını təmin etmək üçün üzərinə düşən vəzifələri layiqincə yerinə yetirəcək. Yaz sessiyasında parlamentdə hökumətin və insan hüquqları üzrə müvəkkilin, bələdiyyələrin fəaliyyətinə nəzarət edən orqanın hesabatları dinləniləcək, digər vacib sənədlərin müzakirəsi keçiriləcək.

Sonra gündəlikdə məsələlər müzakirə edilib. Əvvəlcə Milli Məclisin hesablayıcı və intizam komissiyalarının yenidən təşkil edilməsi haqqında parlamentin qərarları müzakirəyə çıxarılıb. Oqtay Əsədov bildirib ki, qanunvericiliyə edilən dəyişikliyə əsasən, intizam komissiyasının üzvlərinin sayı 7-dən 11-ə qaldırılıb. Komissiyanın tərkibinə deputatlardan Malik Həsənov, Sevinc Hüseynova, Hikmət Məmmədov, Pərvin Kazımzadə və Fəzail İbrahimli də daxil edilib, Kamran Nəbizadə komissiyanın tərkibindən çıxarılıb. Hesablayıcı komissiyasının tərkibi isə dəyişməyib, əvvəlki sədr və üzvlər olduğu kimi saxlanılır. Hər iki qərar ayrı-ayrılıqda səsə qoyularaq təsdiqlənib.

Sonra parlamentin 2019-cu il yaz sessiyasının qanunvericilik işləri planına baxılıb. Bildirilib ki, qanunvericilik işləri planına "Azərbaycan Respublikasının Dövlət Gerbinin və Dövlət Himninin istifadəsi qaydaları haqqında", "Peşə bilikləri haqqında", "Sosial sifarişlər haqqında", "Daxili qoşunlar haqqında", "Hərbi qulluqçuların statusu haqqında", "Texniki tənzimləmə haqqında", "Standartlaşdırma haqqında", "Kabel şəbəkəsi yayımı haqqında", "Kənd təsərrüfatında sığortanın stimullaşdırılması haqqında", "Turizm haqqında", "Ümumi təhsil haqqında", "Kinematoqrafiya haqqında", "Azərbaycan muğam sənətinin qorunması və inkişaf etdirilməsi haqqında", "Yazılı abidələr haqqında", "Reproduktiv sağlamlıq haqqında", "İnsan orqanlarının donorluğu və transplantasiyası haqqında" kimi çox mühüm qanun layihələri, bəzi qanunlarda dəyişikliklər edilməsi barədə sənədlər daxil edilib. Həmçinin Azərbaycan Prezidentinin, deputatların, Ali Məhkəmənin, Baş Prokurorluğun, Naxçıvan Ali Məclisinin qanunvericilik təşəbbüs qaydasında təqdim etdiyi qanun layihələrinin müzakirəsi nəzərdə tutulub.

Deputatlar fikirlərini bildirəndən, təkliflərini səsləndirəndən sonra qanunvericilik işləri planı səsə qoyularaq təsdiqlənib.

"Azərbaycan Respublikası Milli Məclisi komitələrinin sədr müavinlərinin seçilməsi haqqında" qanun layihəsinə əsasən Məlahət İbrahimqızı hüquq siyasəti və dövlət quruculuğu komitəsinin, Şahin İsmayılov isə gənclər və idman komitəsinin sədr müavinləri seçiliblər. Sənədlər səsvermə yolu ilə təsdiqlənib.

Daha sonra Milli Məclis sədrinin birinci müavini, müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri Ziyafət Əsgərov "Azərbaycan Respublikasının "Sərhəddə fərqlənməyə görə" medalının Əsasnaməsinin və təsvirinin təsdiq edilməsi haqqında", "Silahlı Qüvvələri Qarnizon və qarovul xidmətləri Nizamnaməsinin təsdiq edilməsi haqqında", "Əhalinin sağlamlığının qorunması haqqında", "Hərbi xidmət keçmə haqqında" Əsasnaməsinin təsdiq edilməsi barədə, "Dövlət əmlakının özəlləşdirilməsi haqqında", "Azərbaycan Respublikasında dövlət dili haqqında" qanunlarda və Seçki Məcəlləsində dəyişiklik edilməsi barədə və Azərbaycan Respublikasının 1994-cü il 23 sentyabr tarixli 886 nömrəli Qanunu ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Qarnizon və qarovul xidmətləri nizamnaməsi"ndə dəyişiklik edilməsi haqqında qanun layihələrini təqdim edib. Bildirilib ki, qanun layihələri texniki xarakterlidir və uyğunlaşdırma məqsədi daşıyır. Belə ki, 2018-ci il iyunun 12-də "Sərhəd qoşunları haqqında" Qanunda çoxsaylı dəyişiklik edilib. Eyni zamanda, həmin dəyişikliklər əsasında "sərhəd qoşunları" ifadəsi "sərhəd mühafizə orqanları" ifadəsi ilə əvəz edilib. Bundan irəli gələrək "Sərhəd qoşunları haqqında" sənəd "Sərhəd mühafizə orqanları haqqında" qanun adlandırılıb. Bu sənədlər də səsvermə yolu ilə qəbul edilib.

İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Ziyad Səmədzadə "Büdcə sistemi haqqında" və "Dövlət borcu haqqında" qanunlarda dəyişiklik edilməsi barədə məlumatında bildirib ki, bu sənədlərin 2-ci maddələrinə yeni redaksiyada keçid müddəalarının əlavə edilməsi nəzərdə tutulur. Hər iki sənəd səsə qoyularaq məqsədəuyğun sayılıb.

Sonra Ziyad Səmədzadə Mənzil Məcəlləsində edilən dəyişiklikləri diqqətə çatdırıb. Qanun səsə qoyularaq qəbul edilib. Ailə, qadın, uşaq məsələləri komitəsinin sədri Aqiyə Naxçıvanlı Ailə Məcəlləsində nəzərdə tutulan dəyişikliklərin mahiyyəti ilə bağlı bildirdi ki, dəyişikliklər doğumun qeydə alınmasının notariat qaydada müəyyənləşdirilməsi və qanunvericiliyin təkmilləşdirilməsi məqsədini daşıyır. Sənəd səsə qoyularaq təsdiq edilib.

İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Ziyad Səmədzadə Ticarət Gəmiçiliyi Məcəllədə dəyişiklik edilməsi haqqında qanun layihəsinin şərhində bildirdi ki, sənəd "gəminin üzgüçülüyə yaralılığı haqqında şəhadətnamə"nin əsas gəmi sənədləri siyahısından çıxarılmasını və bununla bağlı dəyişiklikləri nəzərdə tutur. Sənəd səsə qoyularaq təsdiqlənib.

Ziyafət Əsgərov "Hərbi vəzifə və hərbi xidmət haqqında" qanunda edilən dəyişiklikləri diqqətə çatdıraraq bildirib ki, qanuna əlavə edilən yeni maddə hər il yanvar-mart ayları ərzində həmin il 15 yaşı tamam olan kişi cinsli vətəndaşların yaşayış və olduğu yer üzrə Səfərbərlik və Hərbi Xidmətə çağırış üzrə Dövlət Xidmətinin yerli idarə, şöbə və bölmələrində ilkin hərbi qeydiyyata alınmalarını nəzərdə tutur. Bu vətəndaşlar qeydiyyata alınmaq üçün fərdi çağırış vərəqəsində göstərilmiş müddətdə həmin qurumlara gəlməli və lazımi sənədlərini təqdim etməlidirlər. Qeyd olunub ki, dəyişiklik vaxta qənaət etmək, vətəndaş məmnunluğunu yüksəltmək, dövlət idarəçiliyində səmərəliliyi artırmaq üçündür. Sənəd səsvermə yolu ilə təsdiqlənib.

Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli İnzibati Xətalar Məcəlləsində və "Avtomobil nəqliyyatı haqqında" Qanunda dəyişiklik edilməsi barədə sənədlə bağlı məlumatında bildirib ki, ölkəmiz "Yol hərəkəti haqqında" Vyana Konvensiyasına qoşulub. Dəyişikliklər sürücülük vəsiqələrindəki məlumatların və alt kateqoriyaların beynəlxalq standartlara uyğunlaşdırılması ilə bağlıdır. Bu sənədlərdəki dəyişikliklər "Yol hərəkəti haqqında" Qanuna dəyişiklik edilməsi barədə 2018-ci il 31 may tarixli 1172-VQD nömrəli qanunun icrası məqsədilə hazırlanıb. Sənəd müzakirələrdən sonra səsvermə yolu ilə təsdiq edilib.

Mədəniyyət komitəsinin sədri Rafael Hüseynov birinci oxunuşda "Kitabxana işi haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi haqqında ətraflı məlumat verib. Qeyd olunub ki, təklif olunan dəyişiklik kitabxanaların elektron sistemə keçirilməsi məqsədilə hazırlanıb Bu, indiyədək bu sahədə mövcud olan pərakəndəliklərin aradan qaldırılmasına, çoxsaylı kitabxanaların fondlarının vahid sistemə birləşdirilməsinə, yəni onların bir məkana toplanmasına imkan verəcək. Məqsəd istifadəçilərin bu fondlara girişini və istifadəsini asanlaşdırmaqdır. Bununla bağlı qanunun bəzi maddələrinə dəyişiklik edilir. Bu dəyişiklik kitabxanaların elektron sistemə keçirilməsi ilə bağlı olduğunu vurğulayan sədr bildirib ki, sənəd elektron kitabxanaçılığın inkişafına xidmət edəcək. Sənəd səsə qoyularaq təsdiqlənib.

Sonra komitə sədri "Kütləvi informasiya vasitələri haqqında" və "Nəşriyyat işi haqqında" qanunlarda edilən dəyişikliklərin də eynilə "Kitabxana işi haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanunda olduğu kimi kitabxanaların elektron sistemə keçirilməsi ilə bağlı olduğunu vurğulayıb. Bu sənədlər də məqsədəuyğun sayılıb. Rafael Hüseynov "Milli arxiv fondu haqqında" Qanunda edilən dəyişikliklərin "Dövlət sirri haqqında" Qanuna uyğunlaşdırma xarakteri daşıdığını deyib. Sənəd təsdiq edilib.

Əmək və sosial siyasət komitəsinin sədri Hadi Rəcəbli Əmək və Cəzaların İcrası Məcəllələrində dəyişiklik edilməsi haqqında qanun layihələrini birinci oxunuşda təqdim edib. Bildirilib ki, Əmək Məcəlləsinin 3-cü maddəsinə "müvafiq icra hakimiyyəti orqanının" sözlərindən sonra "mərkəzləşdirilmiş" sözü əlavə edilir. Bundan başqa, sənədin 14-cü maddəsinə "əmək münasibətləri sahəsində elektron xidmətləri elektron informasiya sistemi vasitəsilə həyata keçirir" məzmunlu dördüncü abzas əlavə edilir. Qeyd olunub ki, Cəzaların İcrası Məcəlləsinin 90-cı maddəsi də yeni redaksiyada təklif edilir. Komitə sədri dəyişikliklərin münasibətlərin elektronlaşdırılması, həbsdə olan insanların pensiya təminatının asanlaşdırılması ilə bağlı olduğu vurğulayıb. Hər iki sənəd ayrı-ayrılıqda səsə qoyularaq təsdiqlənib. Bununla da Milli Məclis işini başa çatdırıb.

**Rəfiqə Kamalqızı**

# Rusiyadan böyük məbləğlərdə pullar Əli Kərimli üçün göndərilirmiş



Fevralın 1-də Rüstəmov Saleh Məhərrəm oğlu, Rüstəmli Vidadi Valeh oğlu, Məhərrəmov Aqil Əli oğlu, Həsənov Babək Qəzənfər oğlu və Nəsirov Ruslan Şamil oğlunun Cinayət Məcəlləsinin müvafiq maddələri ilə təqsirləndirilmələrinə dair cinayət işi üzrə Bakı Ağır Cinayətlər Məhkəməsində hakim Eldar İsmayılovun sədrliyi ilə keçirilmiş növbəti baxış iclasında İslam Rəhimov, Natiq Kamalov və Vüsal Bayramov şahid qismində dindiriliblər. SİA-nın məlumatına görə, məhkəmə iclasında Cəmil Həsənli, Arzu Səmədbəyli, eləcə də KİV-lərin nümayəndələri iştirak ediblər.

Natiq Kamalov məhkəmədə ifadəsində göstərib ki, ticarət məqsədilə mütəmadi olaraq Rusiyaya gedib-gəlir, ayrı-ayrı şəxslərin Moskvadan Azərbaycana pul göndərilməsi məsələsini həll edir. 2016-cı ilin sonlarında Moskvada olanda Saleh Rüstəmov ona Bakıya 4000 ABŞ dolları göndərmək istədiyini, pulu Bakıda qardaşı oğlu Vidadi Rüstəmlinin götürəcəyini deyib. Pulu ondan götürdükdən sonra Vidadi Rüstəmlinin əlaqə vasitəsini qohumu Tural Mehdixanova göndərib. Vidadi Turalla Bakıda görüşərək 4000 ABŞ dollarını ondan götürüb. Bundan sonra dəfələrlə qeyd olunan qaydada Saleh Rüstəmov Moskvadan Bakıya bəzən 3000, bəzən isə 4000 ABŞ dolları göndərib. 2017-ci ilin ortalarında isə Saleh Rüstəmov onun vasitəsilə bir dəfəyə 175.000 ABŞ dolları pul göndərib, həmin pulu da Vidadi Rüstəmli Bakıda Turaldan götürüb.

İslam Rəhimov ifadəsində göstərib ki, 10 may 2018-ci il tarixdə Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsinin əməkdaşlarının təklifi əsasında onlar tərəfindən keçirilmiş əməliyyat tədbirində hal şahidi qismində iştirak etməyə razılıq verib. Həmin tarixdə polis əməkdaşlarının dəvəti ilə onlar Nərimanov rayonunda yerləşən "Əlibaba" çay evinin qarşısına gəliblər. Bir neçə dəqiqə sonra ora ağ rəngli "Kia" markalı avtomobil gələrək çay evinin qarşısında dayanıb. Polis əməkdaşları sükan arxasından düşən Vidadi Rüstəmliyə yaxınlaşıb xidməti vəsiqələrini təqdim etdikdən sonra narkotiklə bağlı şübhəli bilindiyi üçün saxlanıldığını bildiriblər. Vidadi Rüstəmli şalvarının cibində bir büküm heroini, sonra isə idarə etdiyi avtomobilin qoltuqaltından iki ədəd selofan bükümlərdə maddələri çıxarıb polislərə təqdim edib

Vüsal Bayramov isə məhkəmədə dindirilərkən bildirib ki, AXCP-nin üzvü Aqil Məhərrəmovu dostu Yusif vasitəsilə tanıyıb. Bir dəfə Aqil ona telefonla zəng edib, həmin gün işi olduğuna görə onun əvəzinə "Gənclik" metro stansiyasında bir nəfərlə görüşməyini və göndərilən pulu götürüb ona verməyini xahiş edib. O da işdən çıxdıqdan sonra Atatürk parkının yaxınlığında bir nəfər oğlanla görüşüb 500 ABŞ dolları məbləğində pulu qəbul edərək Aqilə verib.

Qeyd edək ki, təqsirləndirilən şəxs Aqil Məhərrəmov ilkin ifadələrində faktiki qanunsuz sahibkarlıq və cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin leqallaşdırılması əməllərini törətməklə üzvü olduğu siyasi qurumun fəaliyyətini qeyri-qanuni maliyyələşdirdiyini etiraf etmişdir. Məhkəmənin növbəti iclası fevralın 5-nə təyin edilib.

# “Azərbaycanın gələcəyi etibarlı əllərdədir”

## *İlham Əliyev: “Haqlı olaraq cənclərimizlə fəxr edə bilərik”*

***Dünən Bakı Konqres Mərkəzində 2 Fevral Azərbaycan Gəncləri Günü münasibətilə Prezident İlham Əliyev gənclərlə görüş keçirib və onlara öz tövsiyələrini verib. Görüşdə iştirak edən bir qrup gənc görüşlə bağlı təəssüratlarını bölüşdülər.***

### YAP Binəqədi rayon təşkilatı gənclər birliyinin sədri Fəsli Nəbiyev: “Azərbaycan Prezident İlham Əliyevin rəhbərliyi ilə islahatlar dövrünü yaşayır”



- Ulu Öndər Heydər Əliyev tərəfindən əsası qoyulan gənclər siyasəti bu gün Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilir. “Bugünkü gənc sabah ölkəmizi idarə edəcəkdir”- deyən Prezident İlham Əliyevin rəhbərliyi ilə görülən işlərin amalında Azərbaycan gənclərində ölkənin uğurlu inkişafına istiqamətləndirə biləcək potensialın yaradılması dayanır. Son 15 ildə görülən işlərə baxsaq, yüksək intellektual bacarıqlara malik olan və ölkənin ictimai-siyasi həyatında aktiv şəkildə fəaliyyət göstərən gənclər ordusunun formalaşdığını görmüş olarıq. Hazırda gənclər dövlət idarəçiliyi, iqtisadiyyat, mədəniyyət, idman və digər sahələrdə uğurla çalışır, ölkəmizi şərəflə və yüksək səviyyədə təmsil edirlər. Qürurla demək olar ki, bu gün Azərbaycan gəncliyi üzərinə götürdüyü şərəfli vəzifələrin öhdəsindən layiqincə gəlməyi bacarır.

İnformasiya-kommunikasiya texnologiyalarının sürətlə inkişaf etdiyi bir dövrdə bütün dünyada, həm də informasiya müharibəsinin getdiyini nəzərə alsaq, vətəndaşlarımız, xüsusilə, gənclərimiz daha çox maarifləndirilməli, onlara daim ayıq-sayıq olmaları, elmli, savadlı gənclik olaraq yetişmələri aşılanmalıdır. Gənclərimiz bu dövrdə dövlət üçün təhlükə ola biləcək radikal cərəyanların təsirinə düşməməli, ölkəmizə zərbə vurmaq istəyən qüvvələrə qarşı daima mübarizə aparmalıdır. Doğrudur, Azərbaycanda özlərini müxalifət adlandıran və ölkəmizə zərbə vurmaq istəyən qüvvələr, ölkə başçısının söylədiyi kimi, 1993-cü ildə hakimiyyətdən qovulublar, ancaq gənclər bu istiqamətdə dayanmamalı, öz siyasi savadlarını artıraraq, haqlı mövqelərini məntiqli şəkildə müdafiə etməyi bacarmalıdırlar.

Bu gün Azərbaycan, ölkə Prezidenti İlham Əliyevin rəhbərliyi ilə islahatlar dövrünü yaşayır və bu islahatların əsas istiqamətlərindən biri də ölkənin iqtisadi potensialının qeyri-neft sektoru əsasında, yəni kənd təsərrüfatının, sənayenin və digər sahələrin möhkəmləndirilməsi dayanır. Bu baxımdan, gənclərimiz Cənab Prezidentin tövsiyəsi əsasında öz bilik və bacarıqlarını genişləndirməli, müasir dövrün tələblərinə uyğun olaraq, formalaşıb ölkəmizin inkişafına töhfə verməlidir.

Fevralın 1-də Bakı Konqres Mərkəzində Azərbaycan Gəncləri Gününə həsr olunmuş respublika toplantısında Prezident İlham Əliyev Gənclər Günü münasibətilə təbriklərini çatdıraraq, gənclərə mühüm tövsiyə və tapşırıqlarını verdi. Xüsusilə, gənclərin vətənpərvərlik ruhunda yetişmələrinin zəruriliyini qeyd edərək, müasir dövrdə gənclərimizin əsas vəzifələrinin müstəqilliyimizi möhkəmləndirmək olduğunu vurğuladı, gənclərə öz inamını və dəstəyini bəyan edərək, onlara uğurlar arzuladı.

### YAP Binəqədi rayon təşkilatı gənclər birliyi idarə heyətinin üzvü Kubra Əliyarlı: “Ölkəmizi uğurlu gələcəyə aparan bu siyasətə dəstək verəcəyik”



- Bu gün ölkə gəncləri üçün çox əlamətdar bir gündür. Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə təsis edilmiş və hər il yüksək təntənə ilə qeyd edilən 2 Fevral Azərbaycan Gəncləri Günü uğurla icra edilir. Cənab Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə biz gənclər üçün yaradılan şəraiti yüksək qiymətləndiririk. Bütün sahələrdə gənclərimizin hərtərəfli - Vətəninə, dövlətinə və xalqına sadiq vətəndaşlar olaraq yetişmələri, onların bilik və bacarıqlarının, potensiallarının daha da artırılması üçün göstərilən diqqət və qayğının, həyata keçirilən islahatların müsbət nəticələrini öz həyatımızda hiss edirik. Dövlətin biz gənclərə göstərdiyi diqqət və qayğı, həm də gənclərin üzərinə böyük məsuliyyət qoyur. Dünyada fəxrlə qeyd etdiyimiz müstəqil Azərbaycanın çiçəklənməsi, dövlət müstəqilliyimizin daha da möhkəmlənməsi istiqamətində daim səylə çalışmalı, ölkə başçısı İlham Əliyevin ətrafında sıx birləşərək, ölkəmizi uğurlu gələcəyə aparan bu siyasətə dəstək verməliyik.

Eyni zamanda, vurğulamaq istəyirəm ki, fevral ayının 1-də ölkə Prezidenti, daim gəncləri öz sevgisi, qayğısı ilə əhatə edən, gənclərin sevimli dostu Cənab İlham Əliyevin və Birinci Xanım Mehriban Əliyevanın respublika gəncləri ilə görüşü keçirildi. Görüşdə geniş nitq söyləyən Cənab Prezident bir sıra vacib məqamlara toxundu, gənclərimizə öz tövsiyələrini və dəyərli fikirlərini çatdırdı. Bir gənc olaraq bu mötəbər tədbirdə iştirak etmək, bu tarixi hadisəyə şahidlik etmək məni olduqca qürurlandırdı. Həmin görüşdə Cənab Prezidentin söylədiyi bütün fikirlərə qoşularaq, onlara əməl edəcəyimizə, vətənpərvərlik ruhumuzu daim yüksək tutacağımıza, milli maraqlarımızı, mənəvi dəyərlərimizi daim qoruyacağımıza, bundan sonra da ölkəmizin inkişafı və tərəqqisi uğrunda əzmlə və qətiyyətlə çalışacağımıza söz veririk. Bu gün dünyada gərgin ictimai-siyasi proseslərin cərəyan etdiyi bir vaxtda ölkəmizin sabitliyinin pozulmasına, xarici maraqlı qüvvələrin təhlükəsizliyimizə göz dikməsinə heç zaman imkan verməyəcək, daxili və xarici siyasəti xalqımızın maraqlarına xidmət edən siyasi liderimizin arxasında qürurla dayanacağıq.

Sonda bütün gənclərimizi bu əlamətdar və eyni zamanda, tarixi hadisə münasibətilə ürəkdən təbrik edir və onlara ən xoş arzularımı çatdırıram.

### YAP Suraxanı rayon təşkilatı aparatının əməkdaşı, gənclər birliyinin üzvü Ənvər Haqverdiyev: “Azərbaycan gənclər siyasətinin layiqli davamçısı kimi bundan sonra da əməli fəaliyyətimlə öz töhfəmi verəcəyəm”.

- Mən də, bir qrup gənclərlə birlikdə “Bakı Konqres Mərkəzi”ndə Azərbaycan Gənclər Gününə həsr olunmuş Respublika Toplantısında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ilə görüşdə iştirak etdim. Tədbirlə bağlı müsbət təəssüratlarım kifayət qədərdir. Hesab edirəm ki, bu gün Cənab Prezidentin biz gənclərlə səmimi görüşü gənclər üçün böyük stimul olmuşdur. Hər bir gəncin bundan sonrakı həyat və fəaliyyətlərinə istiqamət vermişdir. Möhtərəm Cənab Prezidentin gənclərlə səmimi, dost kimi dialoq formasında öz nitqini qurması, böyük səmimiyyətlə öz gənclik illərini xatırlaması və o dövrlərdə gəncliyin qarşılaşdığı çətinlikləri bugünkü gəncliyin nəzərinə çatdırması böyük əhəmiyyətə malik hadisə oldu. Azərbaycan gənclərinin böyük imtiyazlara malik olduğunu qeyd edən Cənab Prezident, gənclərin qarşısında konkret vəzifələr qoyaraq, Azərbaycanın gələcək inkişafının gənclərin əlində olduğunu xüsusi vurğuladı. O, Azərbaycan sərhədlərini qoruyanların, vətənin müdafiəsində dayananların mütləq əksəriyyətinin gənclər olmasını vurğulayaraq, onların Azərbaycan cəmiyyətində iştirakının mühüm əhəmiyyətə malik olduğunu qeyd etdi. Bu, çox vacib anlardan idi. Daha sonra aprel döyüşləri zamanı Azərbaycan ordusunu təşkil edən gənclərin düşmənə şücaətini ən qəti şəkildə göstərməsi faktını xüsusi qeyd edən Cənab Prezident qəhrəman ordumuzla fəxr etdiyini vurğuladı.

Cənab Prezident dövlət orqanlarında gənclərin işlə təmin olunmasının vacibliyindən bəhs edərək, onların işlə təmin olunması barədə tapşırıq və tövsiyələr verdiyini söylədi. Könüllülük prinsipi ilə çalışan gəncləri həvəsləndirməyin lazım olduğunu vurğulayan Cənab Prezident “könüllülər” ordusundan gələcəkdə kadr bazası kimi istifadə olunmasının vacibliyini diqqətə çatdırdı. Gənc sahibkarların, siyasətçilərin, diplomatların yetişməsinin əhəmiyyətini xüsusi qeyd etdi.

Azərbaycanın dövlət müstəqilliyinin əbədi və əzəli olduğunu deyən Cənab Prezident bunu qorumaq və saxlamaq üçün gənclərin yaxşı təhsil almalarını, çox çalışmalı olduqlarını, peşələrinə yaxşı yiyələnmələrini, vətənpərvər olmağı gənclərə tövsiyə etdi və gəncləri “Gənclər Günü” münasibəti ilə ürəkdən təbrik etdi. Başqa bir diqqətçəkən məqam isə natiqlərin çox diqqətlə seçilməsi və Azərbaycana ötən illər ərzində öz uğurları ilə töhfələr vermiş gənclərin ürək sözlərini ifadə etmələri tədbir iştirakçıları tərəfindən xüsusi rəğbətlə qarşılandı. İfadə olunan fikirlərin əsasında “Azərbaycançılıq ideyası və məfkürəsi” var idi. Çıxış edənlər arasında Qarabağ qazisi Kamil Musəvinin qətiyyətli və düşmənə qarşı barışmaz mövqeyi, milli qəhrəman Raqub Orucovun övladının vətənə olan sevgisi və Cənab Prezidentin xüsusi qayğı göstərməsi, onları öz balası kimi bağrına basması Bakı Konqres Mərkəzində kövrək anların yaşanmasına səbəb oldu. Mən bir gənc olaraq, çox böyük qürur hissi duyuram ki, Azərbaycan gənclər siyasətinin layiqli davamçısı kimi bundan sonra da əməli fəaliyyətimlə öz töhfəmi verəcəyəm. Cənab Prezidentlə keçirilmiş görüşdən sonra bir daha əmin oldum ki, Azərbaycanın gələcəyi etibarlı əllərdədir.

***NƏZAKƏT ƏLƏDDİNQIZI***

# Albaniya Prezidenti İlir Meta martda Bakıya gələcək

***Albaniya Prezidenti İlir Meta mart ayında Bakıya gələcək. Nizami Gəncəvi Beynəlxalq Mərkəzindən SİA-ya verilən məlumata görə, o, martın 14-16-da Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşkilatçılığı ilə keçiriləcək VII Qlobal Bakı forumunda iştirak edəcək.***

Qeyd edək ki, mart ayının 14-16-da Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşkilatçılığı ilə VII Qlobal Bakı forumu keçiriləcək. Forumda dünyanın 70-dən çox ölkəsindən 450 qonağın iştirakı gözlənilir. VII Qlobal Bakı forumunun mövzusu “Dünyanın yeni xarici siyasəti” olacaq.



# Azərbaycan gənclərinin mütləq əksəriyyəti Prezident İlham Əliyevin həyata keçirdiyi siyasəti birmənalı olaraq dəstəkləyir

***- Fərid müəllim, məlumdur ki, hər il 2 Fevral - Gənclər Günü ölkəmizdə yüksək səviyyədə qeyd olunur. Ümumiyyətlə, belə bir günün təsis olunması Azərbaycan gəncliyinin həyatında nə kimi rol oynayır?***



*Yeni Azərbaycan Partiyası Gənclər Birliyi Ofisinin rəhbəri Fərid Nəsibovun yap.org.az-a müsahibəsi*

- Bildiyiniz kimi, 2 Fevral- Gənclər Günü 1997-ci ildə Ulu öndər Heydər Əliyevin Sərəncamı ilə təsis olunub və bu, Ümummilli liderin gəncliyə göstərdiyi diqqət və qayğının bir nümunəsi idi. Gənclər Günü MDB məkanında və Şərqi Avropa ölkələri arasında ilk dəfə olaraq Azərbaycanda qeyd olunub. Azərbaycanda 2 Fevral Gənclər Günü qeyd olunandan sonra digər MDB ölkələrində və Şərqi Avropa dövlətlərində də bu gün qeyd olunmağa başladı. Azərbaycanda hər il Gənclər Günündə bütün istiqamətlər üzrə fəaliyyət göstərən gənclər yekun hesabat verir, onların fəaliyyəti qiymətləndirilir.

Onu da qeyd etmək istərdim ki, dünyada 1998-ci il avqustun 8-dən 12-dək Lissabonda keçirilən konfransda BMT-nin qərarı ilə avqustun 12-si Beynəlxalq Gənclər Günü elan edilib. Bu da onun göstəricisidir ki, Azərbaycanın müəyyən olunmuş siyasi, ideoloji inkişaf istiqaməti zamanın tələbini qabaqlamış, ölkə gənclərinin özünü inkişafı üçün münbit şəraitin yaradılmasına xidmət etmişdir.

Bu gün də ölkə başçısı, cənab Prezident İlham Əliyev gəncləri xüsusi diqqət mərkəzində saxlayır, onların qayğıları ilə yaxından maraqlanır. Məhz zamanında atılmış bu addımın nəticəsində Azərbaycan gəncliyi bu gün dünyada öz sözünü deyir, bir sıra xarici dövlətlərin hökumət strukturlarında təmsil olunurlar.

***- Azərbaycan Respublikasının dövlət gənclər siyasətinin reallaşmasında müvafiq Dövlət Proqramlarının icrası da böyük əhəmiyyət kəsb edir. Xahiş edirik, gənclərlə bağlı həyata keçirilən proqramların əhəmiyyəti barədə ümumi fikirlərinizi bildirəsiniz...***

- Ötən illər ərzində Azərbaycanda gəncliyin inkişafı ilə bağlı Dövlət proqramları həyata keçirilib. Bu proqramlar Azərbaycan gəncliyinin inkişafına böyük töhfələr verir.

Dövlət başçısının Sərəncamı ilə gəncləri aparıcı qüvvəyə çevirmək və onların sosial-iqtisadi problemlərinin həllini təmin etmək məqsədilə 2005-2009-cu illəri əhatə edən "Azərbaycan gəncliyi" Dövlət Proqramı təsdiq edilərək həyata keçirildi. Eləcə də Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən 2007-ci ilin "Gənclər ili" elan edilməsi, "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı"nın təsdiq edilməsi, "Azərbaycan gəncliyi 2011-2015-ci illərdə Dövlət Proqramı" haqqında Sərəncamın imzalanması Azərbaycanda gəncliyə diqqət və qayğının davamlı bir siyasət olduğunu bir daha təsdiqlədi.

Bununla yanaşı, ölkə Prezidenti tərəfindən Gənclər Fondunun yaradılması, "Gənclər üçün Prezident Mükafatı"nın təsis edilməsi də əhəmiyyətli addımlardandır. Xüsusilə qeyd etmək istəyirəm ki, "2015-2025-ci illərdə Azərbaycan gənclərinin İnkişaf Strategiyası" da gənclər üçün böyük perspektivlər açır. Təbii ki, bütün bunlarda məqsəd gənclərin hərtərəfli inkişafını, cəmiyyətin həyatında fəal iştirakını təmin etməkdir. Hesab edirəm ki, gənclər öz fəaliyyəti ilə dövlətin göstərdiyi etimadı doğrultmalıdırlar.

***- Hər bir cəmiyyətdə gənclər aparıcı qüvvə hesab olunur. Bu baxımdan, sizcə, gənclər ölkəmizin ictimai-siyasi həyatında hansı səviyyədə təmsil olunur?***

- Gənclərimiz ölkəmizin ictimai-siyasi həyatda fəallığı ilə xüsusi seçilirlər. Həqiqətən gənclər hər bir cəmiyyətin avanqard qüvvəsidir. Savadlı, intellektual gənclik bu gün düzgün istiqaməti, düzgün və sağlam ideoloji inkişaf yolunu seçmək iqtidarındadır.

Bu baxımdan, Azərbaycan gənclərinin mütləq əksəriyyəti Heydər Əliyev ideyalarına sadiqdirlər, cənab Prezident İlham Əliyevin həyata keçirdiyi siyasəti birmənalı olaraq dəstəkləyirlər. Dövlətimizin siyasəti nəticəsində Azərbaycanda sağlam ruhlu, intellektual gənc nəsl yetişib. Təbii ki, bu gənclik hər bir sahədə fəal şəkildə təmsil olunurlar. O cümlədən, gənclərimiz ictimai-siyasi proseslərdə də fəal iştirak edirlər. Bu gün gənclərimiz dövlət idarəçiliyində, seçkili orqanlarda, eləcə də vətəndaş cəmiyyətində aktiv şəkildə təmsil olunurlar. Və ölkəmizin inkişafına, milli maraqlarımızın qorunmasına, Prezident İlham Əliyevin uğurlu siyasətinin təbliğ olunmasına öz töhfələrini verirlər.

Yeni Azərbaycan Partiyasının gəncləri bu baxımdan Azərbaycan gəncliyinin önündə gedir. Partiyamızın gəncləri daim ictimai-siyasi proseslərdə fəaldır. Onlar dövlətimizin və partiyamızın qarşıya qoyduğu vəzifələrin layiqincə yerinə yetirilməsi üçün məsuliyyətlərini dərindən dərk edir və bu yolda fəaliyyətlərini davam etdirirlər.

***- YAP Gənclər Birliyinin ötən il ərzindəki fəaliyyəti ilə bağlı nə deyə bilərsiniz?***

- Ötən il ərzində fəaliyyətimiz çoxşaxəli olmuşdur. Yeni Azərbaycan Partiyası Gənclər Birliyi 2018-ci ildəki fəaliyyətini də Ulu öndər Heydər Əliyev ideyalarının təbliği, Prezident İlham Əliyevin daxili və xarici siyasətinin dəstəklənməsi, ölkə həqiqətlərinin beynəlxalq ictimaiyyətin diqqətinə çatdırılması, gənclərin ictimai fəallığının, dil, İKT biliklərinin artırılması, sosial mühitə adaptasiyası, dövlətimizin apardığı siyasətin sosial şəbəkələrdə təbliği istiqamətində quraraq, müxtəlif layihələr həyata keçirmişdir.

2018-ci ildə ölkəmiz üçün əlamətdar hadisələrdən ən önəmlisi məhz 11 aprel prezident seçkiləri oldu. Seçkilərə hazırlıq, təbliğat-təşviqat prosesində YAP Gənclər Birliyinin üzvləri aktiv şəkildə iştirak edərək, Yeni Azərbaycan Partiyasının namizədinin seçki platformasının əhali arasında təbliğində, təbliğat bukletlərinin paylanılmasında, imzatoplama kampaniyasında aktiv iştirak etmişlər.

Prezident İlham Əliyevin Sərəncamı ilə 2018-ci ilin Azərbaycan Xalq Cümhuriyyəti İli elan edilməsi ilə əlaqədar Gənclər Birliyi də bu istiqamətdə bir sıra tədbirlər həyata keçirmişdir. Belə ki, YAP Gənclər Birliyinin üzvləri 23 may 2018-ci il tarixində partiyanın Xətai rayon təşkilatının qərargahında AXC-nin 100 illiyi ilə əlaqədar Azərbaycan Respublikası Prezidentinin Katibliyinin rəisi - Prezidentin köməkçisi Dilarə Seyidzadə ilə görüşmüşlər. Görüşdə AXC-nin tarixi və yaranma zərurətindən, 2018-ci ilin Azərbaycan Xalq Cümhuriyyəti İli elan edilməsinin əhəmiyyətindən danışılmış, gəncləri maraqlandıran suallar cavablandırılmışdır.

Yeni Azərbaycan Partiyası Gənclər Birliyi hər zaman olduğu kimi Ulu öndərin irsinin gənclər arasında təbliği məqsədilə müxtəlif tədbirlər həyata keçirmişdir. Bütövlükdə, YAP Gənclər Birliyi il ərzində aktual mövzular, cəmiyyətin gündəmində olan məsələlər haqqında müxtəlif tədbirlər, layihələr reallaşdırıb.

***- Məlumdur ki, sosial şəbəkələr həyatımızın ayrılmaz tərkib hissəsinə çevrilib. Sosial şəbəkələrdə Azərbaycanın inkişafını gözü götürməyən müəyyən dairələr ölkəmizə qarşı kampaniyalar aparırlar. Gənclərimizin sosial şəbəkələr müstəvisində həmin dairələrə qarşı mübarizəsi hansı səviyyədədir?***

- Bəli, bu məsələ bu gün çox aktualdır. Dünyada yeni, müasir texnologiyalardan geniş istifadə olunur. Sosial şəbəkələr isə demək olar ki, hər bir insanın gündəlik həyatının tərkib hissəsinə çevrilib. Sualınıza gəlincə, demək istəyirəm ki, bu məsələ həqiqətən narahatlıq doğurur. Çünki, müəyyən dairələr sosial şəbəkələr vasitəsilə ölkəmiz haqqında yalan, iftira dolu məlumatlar yayırlar. Burada məqsəd həm ölkəmizdə vətəndaşları çaşdırmaq, həm də Azərbaycanın beynəlxalq imicinə zərbə vurmaqdır.

Yeni Azərbaycan Partiyasının gəncləri olaraq bizlər bu istiqamətdə bütün imkanlarımızı səfərbər etmişik. Gənclərimiz həm fərdi olaraq, həm də sosial şəbəkələrdə yaradılmış qruplar çərçivəsində yayılan həmin yalan məlumatların ifşası istiqamətində işlər görülür, gənclər arasında maarifləndirmə işləri aparılır.

Eyni zamanda, dövlətimizin həyata keçirdiyi siyasətin uğurlu nəticələri insanlar arasında geniş şəkildə təbliğ olunur. Hesab edirəm ki, ölkəmizə qarşı kampaniya aparan dairələr heç vaxt məqsədlərinə nail olmayacaq. Onların indiyə qədər olan cəhdləri həmişə iflasa uğrayıb. Çünki Azərbaycan cəmiyyəti bütövlükdə yetkindir, gənclərimiz isə sağlam, vətənpərvərlik ruhunda formalaşıb. Belə bir cəmiyyət daim məkrli qüvvələrə öz sözünü deyəcək.

## "Paşinyan Azərbaycan Prezidentinin siyasəti qarşısında aciz qalıb"



Ermənistan öz ərazisindən tranzit kəmərlərin keçməsində maraqlıdır. Bu barədə Nikol Paşinyan Rusiyanın RBK telekanalına müsahibəsində deyib. AZƏRTAC xəbər verir ki, siyasi ekspertlər bunu Ermənistanın məruz qaldığı təcrid siyasətinin yaratdığı çıxılmaz vəziyyətin etirafı adlandırırlar. Paşinyan Ermənistanın "Şimal axını-2" layihəsindən kənarda qaldığını təəssüf hissi ilə bildirib. O deyib: "Biz maraqlıyıq ki, ölkəmizdə də hansısa tranzit boru kəməri tikilsin ki, bunun vasitəsilə, misal üçün, A məntəqəsindən B məntəqəsinə qaz və ya neft ötürülsün".

Ermənistanın baş naziri ölkəsinin beynəlxalq layihələrdə iştirak etməsini istəyirsə bunun çıxış yolu sadədir. Regionda həyata keçirilən beynəlxalq layihələrin əsas təşəbbüskarı və icraçısı Azərbaycan olduğundan Paşinyan hökumətinin qarşısında iki yol var. İşğala son qoyub təcriddən qurtularaq iqtisadi inkişaf yolunu açmalıdır, ya da sələflərinin səhvini təkrarlayaraq ölkəsinin iflası seyr etməlidir.

Ermənistanda siyasi vəziyyət də gərgindir. Ötən ilin əvvəlinə kimi iqtidarda olan Respublikaçılar və Daşnaksütyun partiyalarının nümayəndələri yeni hökumət əleyhinə mətbuat konfransları keçirirlər. Parlamentin keçmiş vitse-spikeri Eduard Şarmazanov Paşinyanın xarici və daxili siyasətini tənqid edib. O bildirib ki, Paşinyan Azərbaycanın dövlət başçısının siyasəti qarşısında aciz qalıb. Şarmazanov Vahid Ermənistan partiyasının sədr müavini Mqer Yeqiazaryanın "Nubarəşen" həbsxanasında keçirdiyi 44 günlük aclıq aksiyası nəticəsində ölümündə də yeni hökuməti günahlandırıb. Hüquq müdafiəçiləri isə bu hadisənin yaxşı nəticə verməyəcəyini deyirlər. Vurğulanır ki, hökumət keçmişdə hakimiyyətdə olan şəxsləri təqib etməkdən əl çəkməlidir. Ötən ilin dekabrında həbs olunan 51 yaşlı Mger Yegiazaryan 2014-2018-ci illərdə fırıldaqçılıq yolu ilə hərbçiləri işlə təmin etmək, yaxud xidməti vəzifəsini yüksəltmək adı ilə külli miqdarda - 4 milyon 775 min dram vəsait mənimsəməkdə ittiham olunurdu. Ermənistan Polisinin qərargah rəisi Armen Quqasyan ilin yekunlarına dair mətbuat konfransında deyib ki, həbslərə siyasi don geyindirmək olmaz. Yegiazaryan fırıldaqçı olduğu üçün azadlıqdan məhrum edilib. Quqasyanın sözlərinə görə, ölkədə korrupsiya faktları xeyli artıb. Buna qarşı mübarizə tədbirləri nəticəsində dövlətə, təşkilatlara, fərdi şəxslərə 5,7 milyard dram, yəni, 11,7 milyon ABŞ dolları məbləğində maddi ziyan vurulub.

# ABŞ Cənubi Qafqaza biganə deyil

## *Rəsmi Vaşinqton Cənubi Qafqazda mövqelərini əldən verməmək üçün, Azərbaycan həqiqətlərini etiraf etmək, haqlı olduğu ilə barışmaq məcburiyyətindədir*

***Yanvarın 29-da ABŞ prezidentinin milli təhlükəsizlik məsələləri üzrə müşaviri Con Boltonun Azərbaycan Prezidenti İlham Əliyevə telefonla zəng etməsi heç də təsadüfi deyil. Trampın müşavirinin bir neçə gün əvvəl Ermənistanın baş nazirinə zəng vurduğunu nəzərə aldıqda, aydın olur ki, bu zəng sıradan bir telefon əlaqəsi təşəbbüsü sayıla bilməz. Görünür, Birləşmiş Ştatlar Cənubi Qafqazla bağlı hansısa tədbirlər haqqında düşünür və yeni strategiya artıq işlənib hazırlanıb. Con Boltonun bir neçə gün əvvəl Ermənistanın baş nazirinə zəngi dərhal yada düşür və bir sıra suallar ortaya çıxır. Görəsən, ABŞ prezidentinin milli təhlükəsizlik məsələləri üzrə müşaviri, Azərbaycan Prezidentinə zəngindən bir neçə gün öncə, niyə Ermənistan hakimiyyəti ilə əlaqə saxlayıb və Nikol Paşinyanla hansı mövzuda söhbət aparıb? Bu zənglərin ardıcıllığı təsadüfi ola bilərmi və məqsəd nə ola bilər? Qarabağ məsələsi müzakirə mövzusu olubmu?***



### Nikol Paşinyan Qarabağ Klanından ehtiyat etdiyi səbəbdən, Boltonun zəng edərkən münaqişə ilə bağlı müzakirə aparmadığını bildirir

Doğrudur, Paşinyan açıqlama verib ki, Bolton onu yalnız baş nazir seçilməsi münasibətilə təbrik edib və güya başqa bir müzakirə olmayıb. Baş nazirin Dağlıq Qarabağla bağlı heç bir müzakirənin aparılmadığını bildirməsi, sözsüz ki, şübhə doğurur. Heç şübhəsiz ki, Paşinyanın belə bir açıqlama verməsi yenə də adəti üzrə, daxili auditoriyaya hesablanıb və məqsəd rəqiblərini sakitləşdirməkdir. Bir sözlə, Nikol Paşinyan Qarabağ klanından ehtiyat etdiyi səbəbdən, belə bir açıqlama vermək məcburiyyətində qaldığı diqqəti cəlb edir. Əgər Azərbaycan Prezidentinin Mətbuat Xidmətinin yaydığı məlumatda Con Boltonun Cənab İlham Əliyevlə bir sıra mövzularla yanaşı, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı danışıqlar prosesini müzakirə etdiyi də qeyd olunursa, deməli, bu mövzu bir neçə gün öncə, Paşinyanın özü ilə də müzakirə edilib. İndi Ermənistanın baş naziri bunu etiraf etmirsə, bu, onun ehtiyatlandığını təsdiq edir, müzakirənin aparılmadığını yox. Ermənistanın baş naziri ilə Dağlıq Qarabağ məsələsi barədə müzakirələrin aparılıb-aparılmadığı müzakirə mövzusu deyil, lakin Paşinyanın bu müzakirəni gizlətməsinin müzakirə mövzusuna, bilavasitə aidiyyəti var və sonda bu, öz təsdiqini tapacaq. Əslində, müzakirə mövzusu Con Boltonun Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı müzakirələr aparmağa niyə maraqlı olmasıdır. Bəlkə həqiqətən də, ABŞ bu münaqişənin həlli ilə bağlı hərəkətə keçib? Əgər belə isə, Birləşmiş Ştatların hərəkətə keçməsi, özü də uzun müddətdən sonra hərəkətə keçməsi hansı maraqdan irəli gəlir?

### Birləşmiş Ştatlar Rusiyanın maraqları ilə mübarizədə israrlıdır və bu mübarizə məkanına, sözsüz ki, Cənubi Qafqaz da daxildir

Amerika kimi fövqəldövlətin münaqişə ilə bağlı hərəkətə keçdiyi haqda düşünəndə dərhal ABŞ milli kəşfiyyatının rəhbəri Deniel Koutsun fikirlərini, Rusiyanın müdaxiləsi nəticəsində Dağlıq Qarabağ münaqişəsinin yenidən alovlana biləcəyinə dair açıqlamasını xatırlasaq, ABŞ-ın hərəkətə keçdiyini, birmənalı şəkildə, söyləmək olar. Hətta bu fövqəldövlətin nə səbəbə, nəyə görə hərəkətə keçdiyi qənaətinə də gəlmək mümkündür. Unutmaq lazım deyil ki, Birləşmiş Ştatların Rusiyanın maraqları ilə mübarizəsi yenilik deyil və ştatlar bu mübarizəni dünyanın hər yerində aparır. Məsələn, Moskva Venesuellanın hazırkı prezidentini müdafiə etdiyi halda, ABŞ, tam əksinə olaraq, prezident Maduronu devirmək istəyən qüvvələri dəstəkləyir. Suriyadakı durum da daha bir sübutdur və heç də sirr deyil ki, Amerika Suriyadan çıxmaq istəsə də, Rusiyanın bu ölkəyə tam hakim olmasını istəmir. Məhz Rusiyanın bu ölkədə hakimiyyətini əngəlləmək üçün müxtəlif yollara əl atır. Bu sıraya Ukraynanı da əlavə etmək olar və sadalananlar təsdiq edir ki, Birləşmiş Ştatlar Rusiyanın maraqları ilə mübarizədə israrlıdır. Bu mübarizə məkanına, sözsüz ki, Cənubi Qafqaz da daxildir və görünür, indi də növbə bu bölgənindir və çox güman ki, Cənubi Qafqazla bağlı ABŞ-ın strategiyası artıq hazırdır. Görünür, Rusiyanın bölgədəki mövqeyinin zəiflədilməsi və təsirinin azaldılması strategiyanın qayəsini təşkil edir. Vaşinqtondan Bakıya və İrəvana zənglərin sayının artması, məhz təsdiq edir ki, ABŞ-ın Cənubi Qafqazla bağlı strategiyası artıq hazırdır və ştatlar aktiv fəaliyyətə başlayıb.

### Cənubi Qafqazla bağlı Vaşinqtonun hərəkətə keçməsi başadüşüləndir və amerikalılar bu bölgəni qətiyyən ruslara hədiyyə vermək fikrində deyillər

ABŞ-ın 2000-ci ildən bu vaxta qədər Dağlıq Qarabağ münaqişəsinin həllində xüsusi fəallıq nümayiş etdirmədiyi sirr deyil. Azərbaycan və Ermənistan prezidentlərinin Amerikada sonuncu görüşü 19 il əvvəl olub və bu qədər uzun müddət heç bir maraq dairəsində olmayıbsa, indi bu münaqişə marağa səbəb olursa, deməli, rəsmi Vaşinqton bu mövzuya qayıtmaq qərarındadır. Donald Trampın güclü komandası, Bolton kimi təcrübəli diplomatı var və hər hansı bölgənin Rusiyaya bəxş edilməsinə razılaşılacağına inanmaq belə olmur. Bunun arzuolunmaz nəticələri ştatlar üçün qəbuledilməzdir. Gürcüstanın və Ukraynanın misalında ABŞ bunun acı nəticələrini təcrübi olaraq gördü. Məhz bu baxımdan, Cənubi Qafqazla bağlı Vaşinqtonun hərəkətə keçməsi başadüşüləndir və amerikalılar bu bölgəni qətiyyən ruslara hədiyyə vermək fikrində deyillər.

Çox güman ki, rəsmi Vaşinqton Moskva və Paris görüşlərindən sonra Azərbaycan Prezidenti ilə Ermənistanın baş nazirinin görüşünü Amerika ərazisində təşkil etmək niyyətindədir. Təbii ki, bu görüşü də reallaşdırmaq üçün əvvəlcədən müəyyən fəaliyyətə ehtiyac duyulur və münaqişə tərəfləri ilə bu istiqamətdə iş aparmaq lazım gəlir. Heç şübhə yoxdur ki, Con Bolton artıq bu istiqamətdə fəaliyyətə start verib və görünür, bir-birinin ardınca əvvəl Ermənistanın baş naziri, sonra isə Azərbaycan Prezidenti ilə telefon əlaqəsi saxlayaraq münaqişə ilə müzakirə aparması start verilən fəaliyyət strategiyanın tərkib hissəsidir.

### ABŞ münaqişə tərəflərinə, Bakı və İrəvana ehtiyatlı olmaq barədə xəbərdarlıq etməklə diqqəti özünə cəlb etmək məqsədi güdür

ABŞ Milli Kəşfiyyatının rəhbəri Deniel Koutsun fikirləri, daha dəqiq desək, Rusiyanın müdaxiləsi nəticəsində Dağlıq Qarabağ münaqişəsinin yenidən alovlana biləcəyinə dair açıqlaması, əslində, münaqişə tərəflərinə olan xəbərdarlıqdır. Bu xəbərdarlıq isə, özündə Rusiyanın istənilən anda münaqişəyə müdaxilə etmək və idarəetməni öz əlinə almaq kimi proqnozları ehtiva edir. Qısası, bir növ ABŞ münaqişə tərəflərinə - Bakı və İrəvana ehtiyatlı olmaq barədə xəbərdarlıq edir. Xəbərdarlıq edir ki, münaqişə tərəfləri Rusiyanın səmimiyyətinə etibar etməsinlər. Bu xəbərdarlıq isə, əslində, diqqəti özünə cəlb etmək məqsədi daşıyır. Doğrudur, bu yanaşma məntiqi suallar doğurmaya bilməz və hələ ABŞ-ın özünə və səmimiyyətinə etibar etmək olar, ya olmaz, bu, bir başqa müzakirə mövzusudur. Amma məsələyə uyğun olaraq, bir sual daha çox düşündürür: görəsən, niyə ABŞ bu xəbərdarlığı edir? Yaxud ABŞ-a nə düşüb ki, Azərbaycan, ya da Ermənistan haqqında düşünür? Bəlkə, münaqişənin alovlanması, Ermənistanda və ya Azərbaycanda müharibə acısı narahat etməyə başlayıb amerikalıları? Əgər elə isə, niyə bir vaxt, yəni ötən əsrin sonlarında qırğınlar həyata keçirilən zaman, Xocalı faciəsi törədilən zaman, məcburi köçkünlər yurd-yuvalarından didərgin salınan zaman, yaxud heç olmasa, törədildikdən sonra səsini çıxarmırdı birləşmiş ştatlar? Niyə Con Bolton bu vaxta qədər məsələ ilə bağlı ortaya konkret mövqe qoymurdu? İndi nə dəyişdi və nə səbəbə tərəfləri narahat edəcək məqamlarla Boltonun timsalında Vaşinqton ilgilənəsi oldu?

Təbii ki, ABŞ hökumətinin, münaqişə alovlanarsa Azərbaycan, yaxud Ermənistan nə kimi itkilər verəcək deyə bir qorxusu və əndişəsi yoxdur. Heç bölgədə sülhün pozulması, müharibələrin, terrorun, separatçılıq meyillərinin, ölüm hadisələrinin sayının artması və sair qlobal məsələlər də amerikalıları narahat etmir. Belə olan halda, ABŞ-ın, sadəcə, bölgədə öz mövqelərini möhkəmləndirmək, Cənubi Qafqaz kimi bir məkanı ruslara güzəştə getməmək niyyətinin olduğu öz yeganə məntiqi təsdiqini tapır. Bəlli olur ki, ABŞ Cənubi Qafqaza biganə deyil və bu mövqeyini gizlətmir də. Amma hər bir halda əgər söhbət münaqişənin həllindən gedirsə, deməli, artıq Dağlıq Qarabağ münaqişəsi Azərbaycan torpaqlarının geri qaytarılması, hüquqlarımızın bərpası, ölkəmizin bütün maraqlarının və mənafelərinin təmin olunması şərti ilə öz həllini ən yaxın zamanda tapacaq. Görünür, fövqəldövlət olan ABŞ, ən azından, Cənubi Qafqazda mövqelərini əldən verməmək, Rusiyanın maraqları ilə mübarizəsi xatirinə də olsa, Azərbaycan həqiqətlərini etiraf etmək, haqlı olduğu ilə barışmaq məcburiyyətindədir.

***İnam HACIYEV***

# Print-media ətrafında süni gərginlik yaratmaq cəhdi uğursuz seçimdir



*Yaxud sosial şəbəkələrdə ajiotaj törətmək məqsədi ilə media mənsubları arasında fikir çaşqınlığı yaratmaq istəyənlər bilməlidirlər ki...*

***Məlum olduğu kimi, Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun Müşahidə Şurasının növbəti iclası keçirilib və bu iclasda digər məsələlərlə yanaşı, çap mediası ilə bağlı müzakirələr aparılıb və müəyyən qərarlar qəbul edilib. Qəbul edilən qərarlardan biri də budur ki, KİVDF tərəfindən maliyyə yardımı alan qəzetlərin tirajı minimum 5 min olmalıdır. Belə ki, əvvəl bu tələb 2500 idi.***

Eyni zamanda, qəzetlərin yayımının mindən (1000) iki minə (2000) çatdırılması barədə də qərar qəbul olunub. Bu baxımdan, hansı qəzetlər qoyulan bu tələblərə uyğun gələcəksə, onlara maliyyənin ayrılması davam etdiriləcək. Həmçinin, xarici dildə yayımlanan, tirajı 3000-dən az olmayan, hər buraxılışından, ən azı 1500 nüsxəsi satılan və ya abunə yolu ilə yayılan ictimai-siyasi qəzetlər də maliyyə yardımı ala biləcəklər. Qurumdan bildirilib ki, qəzetlərə maliyyə yardımının ayrılması ilə bağlı qərar mart ayının sonunda veriləcək.

İclasın məlum qərarı ictimailəşdirildikdən sonra, təəssüf ki, sosial şəbəkələrdə süni ajiotaj yaratmaq məqsədi ilə media mənsubları arasında fikir çaşqınlığı yaratmaq istəyənlər də tapılıb.

### Bu məsələ KİVDF-nin səlahiyyətində deyil!

Məsələni kontekstdən çıxararaq, guya 20-dən çox çap mediasına maliyyə yardımının dayandırılması ilə bağlı irəli sürülən iddiaların əsassızlığı isə, ölkənin bir sıra aparıcı media kapitanları tərəfindən sübuta yetirilib. Qeyd olunub ki, süni səs-küylər yaradıb, mətbuat işçiləri arasında müəyyən çaxnaşma salmağa cəhd edənlər bilməlidirlər ki, hansı qəzetin maliyyələşəcəyi, yaxud maliyyələşməyəcəyi ilə bağlı son qərarın verilməsini indidən bəlli etmək mümkün deyil. Çünki hər hansı print-medianın bağlanıb-bağlanmaması qərarını KİVDF icra etmir, əksinə, bu qurum uzun illərdir ki, hətta ən az tirajlı qəzetlərin belə, dövlət tərəfindən maliyyələşməsinə şəraitlər yaradıb, bu istiqamətdə uğurlu fəaliyyətini davam etdirib və hazırda da etdirməkdədir.

### Print-medianın gələcək fəaliyyəti eyni zamanda, biznes rəqabətindən asılıdır

Digər bir məsələ də budur ki, hazırda Azərbaycan da daxil olmaqla, bütün dünyada müxtəlif profillərdə, sahələrdə, o cümlədən, mətbuatda, əsasən də, print-mediada rəqabətlər aparılır. Qəzetlər mövcud biznes mühitindən maksimum şəkildə yararlanmağa, bu vasitə ilə çap mediasını inkişaf etdirməyə çalışırlar. Nəzərə alsaq ki, Azərbaycanın media sahəsində mövcud olan KİVDF modeli, hətta ən aparıcı dünya ölkələrində mövcud deyil, bu zaman ölkəmizdə medianın, jurnalistika sahəsinin inkişafına göstərilən diqqətin nə qədər yüksək səviyyədə qurulduğunu vurğulaya bilərik.

Ancaq digər amillər də var ki, çap mediasının elektron media ilə əvəzlənməsini tələb edir. Əbəs deyil ki, ölkəmizdə kifayət qədər saytlar, portallar fəaliyyət göstərirlər və onların bir çoxu daha öncələr qəzet kimi dərc olunublar, lakin buna baxmayaraq, hələ bu qərar verilməmiş onların bir çoxu print-media qismindəki fəaliyyətlərini dayandıraraq, sayt və portal vasitəsi ilə oxucularının qarşısına çıxırlar.

### Bu, həm də bir reallıqdır

Print-mediadan elektron mediaya keçid edən aparıcı mətbuat adamları da, etiraf edirlər ki, çap vasitələrinin qiymətləri durmadan artır, qəzet bazarı isə get-gedə zəifləyir. Qəzetlərin satışı da getdikcə azalır, bütövlükdə isə, print-media rentabelliyini itirir. Nəticədə əlavə vaxt, enerji və maliyyə itkiləri qəzet biznesi ilə məşğul olan tərəflərə həm də maddi ziyanlar vurur. Bu baxımdan, mediada rəqabət mühitindən daha səriştəli, daha əlverişli üsullarla yararlanmaq şərti meydana gəlir.

Beləliklə, fakt budur ki, bəzi insanlar hər hansı bir qərarın tam mahiyyətini anlamadan ajiotajlar yaratmağa çalışırlarsa, belə cəhdlər mətbuatımıza baş ucalığı gətirməyən hal kimi qiymətləndirilməlidir. Ən azından, o da nəzərə alınmalıdır ki, bu gün Qərb ölkələrinin bir çoxunda print-mediadan imtina olunur. Sadəcə, öz işlərinin öhdəsindən məharətlə gələn qəzetlər, çap mediası qismində oxucularının qarşısına çıxmaqda davam edirlər. Daha dəqiq desək, bu mühitdə özü-özünü maliyyələşdirə biləcək qəzetlər, əlbəttə ki, fəaliyyətlərini davam etdirəcəklər. Bu, həm də müasir dünyanın bir reallığıdır.

***Rövşən NURƏDDİNOĞLU***

# Birdəfəlik ödəməni almaq üçün yaşı 80-ni ötmüş şəhid valideynlərinə yaşadıqları ünvanlarda plastik kartlar təqdim edilib





***Prezident İlham Əliyevin müvafiq Fərmanına əsasən, şəhid hərbi qulluqçuların vərəsələrinin birdəfəlik ödəmə ilə təminatı işləri davam etdirilir.***

Bank hesablarına birdəfəlik ödənişin köçürülən vərəsələrdən ikisi - Bakının Suraxanı rayon sakini, şəhid anası Hüseynova Məryəm Əbdül qızı 84 yaşında və Şamaxı rayon sakini, şəhid atası Nuhov Cüməli Seyidəli oğlu 83 yaşındadır. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin təşəbbüsünə əsasən, onlara birdəfəlik ödəməni almaq üçün plastik kartlar yaşadıqları ünvanlarda təqdim edilib. Nazirliyin ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, müvafiq bankın əməkdaşı hər iki şəhid valideyninə plastik kartları təqdim edib.

Qeyd olunub ki, ölkəmizdə aparılan uğurlu sosial siyasət şəhid ailələrinə dövlət qayğısının da mütəmadi olaraq artırılmasına səbəb olur. Dövlət başçısının müvafiq fərmanları ilə 12268 şəhid hərbi qulluqçunun vərəsələrinə birdəfəlik ödəmənin verilməsi prosesi bunun əyani təsdiqidir. İndiyədək 3758 şəhidin 5144 vərəsəsinə birdəfəlik ödəmənin verilməsinə dair qərar qəbul olunub və indiyədək 3100 şəhidin 4200 vərəsəsinə ödəniş edilib. Bütün şəhid vərəsələrinə birdəfəlik ödənişlərin verilməsi prosesi bu il ərzində başa çatdırılacaq.

# "Dövlət əbədiyyətə qədər qəzetlərə maliyyə ayırmayacaqdı ki"



"15 il müxtəlif qəzetlərdə çalışdım. Siyasi təcrübəmi də jurnalistikada qazandım. Bu gün isə təkcə Azərbaycanda yox, bütün dünyada elektron media çap mətbuatını sıxışdırmağa başlayıb. Qəzet oxuyanların sayı azalıb. Həm də interneti olan əlavə pul verib qəzet niyə alsın ki? Onsuz da həmin yazıları qəzetin internet saytından oxuya bilər. Keçmiş illərdə ətrafda qəzet oxuyan çox idi, indi təsadüfən kiminsə əlində qəzet görərsən". Bunu SİA-ya politoloq Elxan Şahinoğlu deyib.

Politoloq qəzetlərə birbaşa maliyyə yardımı məsələsinə də toxunub: "Bu yardım nə vaxtsa kəsilməli idi. Dövlət əbədiyyətə qədər qəzetlərə maliyyə ayırmayacaqdı ki. Ancaq həmin qəzetlər büdcələrini illərdir məhz ayrılan maliyyə dəstəyinə uyğun formalaşdırmışdılar. Halbuki, ayrılan pullar reklam işinin qurulmasına və oxucu cəlb etməyin yollarının aranmasına xərclənməli idi. Əslində, saytların bir hissəsi də gəlirlə işləmir. Dövlət maliyyə yardımını azaldırsa, saytlara hər ay maliyyə dəstəyi ayıranlar da oxşar qərar verə bilərlər. Azərbaycanda barmaqla sayılacaq qədər media strukturu var ki, kənar maliyyə dəstəyi olmadan özünü dolandıra bilər. Əslində, belə olmamalıdır".

# Müşfiq Ələsgərli: "KİV-lər inkişafın yeni mərhələsinə qədəm qoyur"



"Azərbaycan dövləti o dövlətlərdəndir ki, Ulu Öndər Heydər Əliyevin əsasını qoyduğu siyasətə uyğun olaraq KİV-lərin inkişafı üçün düşünülmüş bir proqram həyata keçirilir və bu proqram da özünün nəticəsini verir". Bunu SİA-ya açıqlamasında Mətbuat Şurasının sədr müavini Müşfiq Ələsgərli deyib. Onun sözlərinə görə, Azərbaycanda KİV-lər peşəkarlaşıb və ictimai rəyi nəzarətdə saxlamağı bacarırlar: "Yeni Azərbaycan ictimai rəyi KİV-lər tərəfindən sabit şəkildə qorunub, saxlanılır. İndi bu, keyfiyyətcə yeni bir mərhələyə daxil olur. Artıq yeni dövrün yeni tələblərinə əsasən Azərbaycan həqiqətlərinin dünyaya çıxarılmasına ehtiyac var. Dünyaya çıxış televiziyalar və qəzetlər vasitəsi ilə mümkün deyil. Çünki rəsmi prosedurlar tələb olunur. Amma internet vasitəsi ilə, heç bir prosedur olmadan dünyaya çıxmaq olur. Ona görə də, Azərbaycan Respublikasının Prezidenti Yanında KİV-lərin İnkişafına Dövlət Dəstəyi Fondu yeni strategiya hazırlayır ki, bu, onlayn KİV-lərin maliyyələşməsi ilə bağlıdır. Onlayn KİV-lər həm yerli ictimai rəyin qorunmasında, həm də Azərbaycan həqiqətlərinin dünyaya çıxmasında böyük rol oynayacaqlar. Sadəcə düşmən qüvvələr yeni strategiyanın olmasını istəmirlər. Onlar görürlər ki, indiyə qədər Azərbaycan dövləti maliyyə vəsaiti qoydu və KİV-lər peşəkarlaşdı, daxili ictimai rəyi sabit saxlaya bildilər, informasiya məkanını qorumağı bacardılar. İndi KİV-lər nəinki ölkə içində informasiya məkanını qoruyacaqlar, həm də dünyaya çıxacaqlar və dünyada ictimai rəyi öz xeyirlərinə dəyişəcəklər. Buna görə də, artıq ifşa olunan qərəzli dairələr əndişələnir, narahat olurlar və hay-küy salmaqla qarışıqlıq salmağa çalışırlar".

# İsmayıllıda 2 Fevral - Gənclər Günü qeyd olunub





İsmayıllı rayon icra hakimiyyəti, YAP İsmayıllı rayon təşkilatı və rayon gənclər və idman idarəsinin birgə təşkilatçılığı ilə şəhər Mədəniyyət Mərkəzində 2 Fevral - Azərbaycan Gəncləri Günü qeyd olunub. Tədbir iştirakçıları əvvəlcə Ümummilli Lider Heydər Əliyevin abidəsini ziyarət edib, önünə gül dəstələri düzüblər. Sonra gənclərin əl işlərindən, yaradıcılıq nümunələrindən ibarət təşkil olunmuş sərgi nümayiş etdirilib. Bayram tədbirində rayonda fəaliyyət göstərən gənclərlə yanaşı, İsmayıllı məktəblərinin yetirmələri olan gənclər, 695-700 balla universitetlərə qəbul olunmuş və qızıl medallı tələbələr iştirak ediblər.

İsmayıllı rayon icra hakimiyyətinin başçısı Mirdaməd Sadıqov bayram iştirakçılarının timsalında rayon gənclərini Azərbaycan Gəncləri Günü münasibətilə ürəkdən təbrik edərək, ölkənin və rayonun inkişafında onlara yeni-yeni uğurlar arzulayıb: “Ümummilli Lider Heydər Əliyev xalqın təkidli xahişi ilə yenidən hakimiyyətə gəldikdən sonra, Azərbaycan gəncləri vahid bir ideya ətrafında birləşərək, təşkilatlandı, dövlət, region və beynəlxalq layihələrin həyata keçirilməsi üçün onlar səfərbərliyə alındı”. M.Sadıqov Ulu Öndərin gəncliyi ölkənin sosial-iqtisadi inkişafının aparıcı qüvvəsinə çevirdiyini diqqətə çatdırıb. O bildirib ki, İsmayıllı gəncləri də dövlət-gənclər siyasətinin həyata keçirilməsində Cənab Prezident İlham Əliyevin sərəncam, tapşırıq və tövsiyələrinin icrasında fəal mövqe tuturlar.

YAP İsmayıllı rayon təşkilatının sədr müavini, rayon gənclər və idman idarəsinin rəisi Taleh Salehov çıxışında bildirib ki, İsmayıllı gənclərini Ulu Öndərin şərəfli adı ilə bağlı olan bu tarixi gün, bayram münasibətilə təbrik edib. İsmayıllı gəncləri dövlət-gənclər siyasətinə sadiq olaraq, uğurlar əldə ediblər: “Onlar sosial-iqtisadi inkişafda fəallıqlarını artıraraq, təhsildə, informasiya texnologiyalarına yiyələnməkdə, peşə öyrənməkdə, hərbi-vətənpərvərlik tərbiyəsində, intellektual inkişafda, milli-mənəvi dəyərlərin qorunması və zənginləşdirilməsində ardıcıl olaraq nailiyyətlər qazanırlar.”

Daha sonra əməkdar müəllim, təhsil veteranı Şəfaqət Rəsulov, YAP rayon təşkilatı gənclər birliyinin sədri Qönçə Ağazadə, gənc fəallardan olan Tacəddin İbadov, gənc müəllim Aytac Ziyadxanlı çıxış edərək, gəncləri təbrik edib, Azərbaycan həyatının daha da zənginləşməsində uğurlar arzulayıb.

Tədbirin sonunda Yeni Azərbaycan Partiyası İsmayıllı rayon təşkilatının sədri Sevil Əhmədova dövlət-gənclər siyasətinin həyata keçirilməsində fəal iştirak edən bir qrup gəncə Fəxri Fərman və hədiyyələr, YAP-ın sıralarına yeni daxil olmuş bir neçə gəncə üzvlük vəsiqəsi təqdim edib.

**ZÜMRÜD BAYRAMOVA**

## Yanvarda 1763 mənzilə təbii qaz verilib

Cari ilin yanvar ayı ərzində çoxmərtəbəli binalar üzrə 1763 mənzildə təbii qazın açılması təmin olunub. “Azəriqaz” İstehsalat Birliyindən AZƏRTAC-a bildirilib ki, birlik çoxmərtəbəli binalara təbii qazın verilməsi istiqamətində fəaliyyətini davam etdirir. Görülmüş işlərin nəticəsində “Azəriqaz” bu ilin yanvar ayı ərzində hüquqi və fiziki şəxslərin müraciətlərini araşdıraraq, müvafiq sənədləri təqdim olunan çoxmərtəbəli binalar üzrə təbii qazın verilməsini təmin edib. Həmin binalarda ümumilikdə 1763 ailə yaşayır.

## “Xəzər dənizinə atdığımız tullantılar ona özünü bərpa etməyə imkan vermir”



“Xəzər hamımızındı. Hər birimiz onun təmiz olması üçün məsuliyyət daşıyırıq və onu çirklənmədən birgə qorumalıyıq. Bunun üçün hər kəs özündən başlamalıdır”. SİA xəbər verir ki, bunu ETSN-nin keçirdiyi mətbuat konfransında qurumun mətbuat katibi İradə İbrahimova deyib. “Xəzər müəyyən qədər özünü bərpa etmək gücünə malik olsa da, bizim ona vurduğumuz zərər, atdığımız tullantılar ona özünü bərpa etməyə imkan vermir. Bu da dənizin ekosisteminin tədricən məhvinə səbəb olur.

Məqsədimiz Xəzər dənizini çirklənmədən qorumaq və ekoloji durumunu sağlamlaşdırmaqdır. Bu məqsədlə də təbliğat və maarifləndirməyə üstünlük veririk. Ümid edirik ki, hər bir fiziki və hüquqi şəxs bizim çağırışımıza cavab olaraq öz üzərinə düşən vəzifəni yerinə yetirəcək, sahibkarlar müasir texnologiyalara üstünlük verərək standartlara cavab verən təmizləyici qurğular quraşdıracaq”.





# Nəsimi rayonunda 2 Fevral Gənclər Gününə həsr edilmiş ağacəkmə aksiyası keçirilib

Yeni Azərbaycan Partiyası Nəsimi rayon təşkilatı və Azərbaycan Respublikasının Mənzil İnşaatı Dövlət Agentliyi ilə birgə 2 Fevral Gənclər Gününə həsr edilmiş ağacəkmə aksiyası keçirilib. Aksiya Mənzil İnşaatı Dövlət Agentliyinin ilk layihəsi olan Yasamal Yaşayış Kompleksinin ərazisində təşkil olunub.

YAP Nəsimi rayon təşkilatının sədri, millət vəkili Məlahət İbrahimqızı bildirib ki, tədbirin məqsədi, əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulan və Onun layiqli davamçısı Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilən dövlət-gənclər siyasəti və Yeni Azərbaycan Partiyasının “700 min ağac əkək” kampaniyası çərçivəsində gənclər arasında ekoloji mədəniyyətin formalaşması prosesinə töhfə verməkdir: “Ətraf mühitin qorunması hissini aşılamaq və ekoloji problemlərə qarşı mübarizədə gənc nəsli birgə fəaliyyətə səsləmək əsas məsələlərdən biridir.”

Aksiya zamanı 200-dən çox yeni ağac əkilib, ərazidə olan Eldar şamı, çinar, zeytun ağacları və bəzək kollarından ibarət yüzdən çox bitkiyə qulluq göstərilib, yaşıllıq zonasının sahəsində təmizlik və abadlaşdırılma işləri aparılıb.

**Nəzakət ƏLƏDDİNQIZI**

# Qusarda Gənclər Günü qeyd olunub



YAP Qusar rayon təşkilatı rayon Heydər Əliyev Mərkəzi ilə birgə 2 Fevral Gənclər Gününə həsr olunmuş tədbiri keçirib.

Tədbiri giriş sözü ilə YAP Siyasi Şuranın üzvü, rayon təşkilatının sədri David İbramxəlilov açaraq, Ümummilli Lider Heydər Əliyev tərəfindən ölkədə dövlət-gənclər siyasətinin əsasının qoyulduğunu qeyd edib: “Ulu Öndərin 1997-ci ildə imzaladığı Fərmana əsasən, 2 Fevral Azərbaycan Gənclər Günü elan edilib. Əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulmuş dövlət-gənclər siyasəti Azərbaycan gəncliyinin gələcək inkişafında dərin izlər buraxıb”.



Tədbirdə Heydər Əliyev Mərkəzinin direktoru Neva Abdurahmanova, fəal gənc Lalə Sadirova çıxış edərək, bu gün dövlət-gənclər siyasətinin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini diqqətə çatdırıblar. Qeyd olunub ki, gənclərimiz yüksək dövlət qayğısı ilə əhatə olunublar. Azərbaycan gəncliyi ictimai həyatın bütün sferalarında aktiv fəaliyyəti ilə seçilir, siyasi, iqtisadi, humanitar, sosial tədbirlərin həyata keçirilməsində mühüm rol oynamaqla bərabər, dövlət orqanlarında, parlamentdə, bələdiyyələrdə, biznes strukturlarında və digər sahələrdə təmsil olunaraq, cəmiyyətin inkişafına öz töhfələrini verirlər.

Tədbirə dəvət olunmuş əməkdar jurnalist, “Qusar” qəzetinin baş redaktoru Vidadi Sevzixanov, əməkdar müəllim, şəhər 2 saylı tam orta məktəbin direktoru Dilşad Şinğarova, əməkdar müəllim Səlimə Nurəddinova, sahibkar Jalə Əmirbəyova və digərləri çıxışlarında gənclərə tövsiyələrini verib, onları maraqlandıran sualları cavablandırıblar. Tədbirin sonunda rayonun istedadlı gənclərinin ifasında musiqi nömrələri dinlənilib və “Gəncliyin səsi” video-təqdimata baxış keçirilib.

**Nəzakət ƏLƏDDİNQIZI**

# Tükənməyən xəyanətlərdən doğan həqiqətlər

## Və ya Əli Kərimliyə yönələn ağır və real ittihamların ardı-arası kəsilmir

***Əli Kərimlinin "xəmirinin" riya, xəyanətkarlıq üzərində yoğrulması faktları kifayət qədərdir və bu gün, AXCP sədrinin bədxah əməlləri barədə yazarkən, onun istər Azərbaycan dövlətinin maraqları əleyhinə, istərsə də cəbhədaşlarına qarşı oynadığı çirkin oyunları dəfələrlə xatırlanır. Maraqlısı da budur ki, iqtidara yaxın media qurumları onun barəsində ifşaedici faktları xatırladarkən, o və sosial şəbəkədəki trolları dərhal iqtidarın Ə.Kərimliyə qarşı "kampaniya" aparması barədə ittihamlar səsləndirilir.***

Ancaq gəlin-görək, bu, həqiqətənmi belədir? Yaxud hər hansı bir şəxsin cəmiyyət tərəfindən hədəfə götürülən xəyanətkarlıq əməlləri ittiham hədəfinə tuş gələrkən, bu ittihamların hakimiyyət tərəfindən təşkil edildiyini iddia etmək nə qədər doğru ola bilər? Axı, fakt həm də budur ki, illərdir AXCP sədrinin ətrafında olanlar daha çox ittihamlar edirlər ki, nəinki iqtidarda təmsil olunan şəxslər və hakimiyyətə yaxınlığı ilə seçilən media qurumları.

**Əli Kərmlinin xəyanətkar davamçıları - Gözəl Bayramova, Fuad Qəhrəmanlı, Qənimət Zahid...**

AXCP şinelindən çıxmış yüzlərlə insanlar var ki, onlar Əli Kərimlini, bütövlükdə, müxalifətə zərbə vurmaqda, düşərgəni daxildən parçalamaqda, xüsusilə, "liderim" dediyi Əbülfəz Elçibəyə xəyanət etməkdə, onu çirkin, idbar kampaniyaları vasitəsilə gözdən salıb, sədrlik kreslosuna yiyələnməkdə suçlayırlar. Bütün bu suçlamalar isə, əlahəzrət faktlara əsaslanır!

Yaxud bu günün özündə, AXCP sədrinin mərhum Elçibəyin həyatına sui-qəsd etməsi ittihamı öz qüvvəsində qalmaqdadır və nəinki Əli Kərimlinin, eləcə də, bu gün onun xəyanətlərinə ortaq olan digər cəbhəçilərin də adları bu məsələlərdə hallanır - hazırda bəlli cinayət səbəbləri üzündən həbsdə olan Gözəl Bayramova, Fuad Qəhrəmanlı, eləcə də, Avropada "siyasi mühacir" adı altında gizlənib, anti-Azərbaycan fəaliyyəti göstərən Qənimət Zahid və sairləri. Yəni bu adamların hər birində xəyanət xisləti təməlli olaraq formalaşıb və sübutlara əsaslanır.

Liderlərinin zəhərləndirilərək öldürülməsində bəlli olan bu adlar artıq öz təsdiqini tapıblar - xəyanətkaqlıq və simasızlıq təsdiqləri. Bu gün onların boyunlarında Əbülfəz Elçibəyə qarşı törətdikləri sui-qəsdin ağırlığı mövcuddur!

**Elçibəyin qardaşı oğlu Hürrü Əliyev: "Onun Əbülfəz Elçibəy əleyhinə sifarişlə yazdırdığı əxlaqa, insanlığa sığmayan məqalələri də hamı xatırlayır"**

Qayıdaq yenə Əli Kərimliyə. Bu gün onu ittiham edənlərdən biri də "Vahid Millət Dövlətçiliyə Dəstək" İctimai Birliyinin sədri, Mil-



li Azadlıq Hərəkatının mərhum lideri, eks-prezident Əbülfəz Elçibəyin qardaşı oğlu Hürrü Əliyevdir. Hələ bir müddət öncə, onun mediaya çıxaraq, AXCP sədri Əli Kərimli barədə irəli sürdüyü ittihamları bu gün də öz qüvvəsində qalmaqdadır. Əbəs deyil ki, o, "Əli Kərimli deyəndə, nədənsə, "satqın" və "xəyanətkar" sözləri yada düşür. Diqqət versəniz, görərsiniz ki, bu insan siyasi fəaliyyəti boyunca, hamını öz şəxsi və siyasi maraqlarına qurban verib və hətta dostlarına belə xəyanət edib" deyə Hürrü Əliyev bildirib. Belə ki, "Yurd" sədrinin xəyanətləri ilə bağlı kifayət qədər faktlar var. Onun sözlərinə görə, xəyanətkar Əli Kərimli, hətta Əbülfəz Elçibəyin AXCP qərargahındakı kabinetinə dinləyici qurğu yerləşdirmişdi: "Mərhum Əbülfəz Elçibəyin otağından öz otağına dinləyici qurğu aparatı birləşdirməsi faktını hamı xatırlayır. Onun Əbülfəz Elçibəy əleyhinə sifarişlə yazdırdığı əxlaqa və insanlığa sığmayan məqalələrini də hamı xatırlayır. Bu çirkin kampaniyaya Elçibəy Türkiyədə ölüm yatağında olanda belə, son verilmədi. Bu, adi xəyanət deyildi, Milli Azadlıq Hərəkatının liderinə, saf və qəlbi təmiz bir insana qarşı yönəlmiş çirkin, ləyaqətsiz bir hərəkət idi. Əli Kərimli onu illərlə davam etdirdi. Bunu heç kim unutmayıb. Nə Elçibəy ailəsi, nə də elçibəyçilər".

**"Elçibəy ailəsi heç vaxt sağ ikən özünü, məzarı üstündə çirkin kampaniya apararaq, ruhunu incidən Əli Kərimlinin arxasında dura, nankor və xəyanətkar birini dəstəkləyə bilməz"**

O, qeyd edib ki, Əli Kərimlinin Elçibəyə xəyanəti bu gün də davam edir. Xüsusilə, Elçibəyin ölümü və doğum günlərində onun məzarı başına gedərək, şoular çıxarması diqqətdən yayınmayıb: "Elçibəy ailəsi heç vaxt sağ ikən özünü, məzarı üstündə çirkin kampaniya apararaq, ruhunu incidən Əli Kərimlinin arxasında dura, nankor və xəyanətkar birini dəstəkləyə bilməz. Bunu Əli Kərimli birdəfəlik bilməlidir".

Görünən isə budur ki, artıq Əli Kərimlinin hansı oyunbazlıqlardan çıxması barədə təkrar-təkrar çıxan dəlillər və sübutlar onun tərəfindən heç rədd edilmir də. Çünki onun özü də yaxşı bilir ki, nə qədər alçaq işlərə imza atıb və bu gün həmin alçaqlıqlarının cavabını alır. Hər halda, təkrar biliyin anası olduğuna görə, AXCP sədri barəsində danışılan həqiqətlərdən təkrar-təkrar öz payını alacaq. Ta o zamana qədər ki, siyasətdən rədd olub getsin.

***Rövşən RƏSULOV***

# Dövlət sərhədindən narkotik vasitələrin qeyri-qanuni gətirilməsi cəhdlərinin qarşısı alınıb

***Dövlət Sərhəd Xidməti (DSX) tərəfindən dövlət sərhədinin etibarlı mühafizəsi istiqamətində həyata keçirilmiş məqsədyönlü əməliyyat-axtarış və qoşun tədbirləri nəticəsində son günlərdə narkotik vasitələrin qeyri-qanuni gətirilməsi cəhdlərinin qarşısı alınıb.***

DSX-nin mətbuat mərkəzindən AZƏRTAC-a bildiriblər ki, yanvarın 15-də saat 18:00 radələrində Xidmətin Sahil Mühafizəsinin texniki müşahidə məntəqəsi tərəfindən Lənkəran rayonunun Qamışovka və Siyavar kəndləri istiqamətində sahildən 12,7 mil məsafədə naməlum üzmə vasitəsinin Azərbaycan Respublikasının dəniz sektoruna daxil olması müşahidə edilib. Xəzər dənizinin cənub istiqamətində dövlət sərhədinin mühafizəsində olan sərhəd gözətçi gəmisi hədəfi izləyərkən o, sürətlə cənub istiqamətinə doğru hərəkət edərək, Azərbaycanın ərazi sularını tərk edib. Naməlum üzmə vasitəsinin hərəkət koordinatlarına baxış zamanı dənizdə buya bərkidilmiş bağlamanın içərisində tünd qara rəngli bərk halda çəkisi 995 qram olan tiryək aşkarlanaraq götürülüb.

Yanvarın 17-20-də saat 20:50 radələrində DSX Sərhəd Qoşunlarının



"Göytəpə" sərhəd dəstəsinin xidməti ərazisində Yardımlı rayonunun Arus kəndi yaxınlığındakı sərhəd zastavasının xidməti sahəsinin müqabilində İran İslam Respublikasında atışma səsləri eşildiyi üçün sərhəd zastavası "Silaha" komandasına qaldırılaraq həmin sahə istiqamətində hərəkət edib. Həmin ərazi dərhal qapadılıb, ətrafda axtarış tədbirləri keçirilib. Nəticədə iki çantanın içərisində 6,1 kiloqram heroin, 1,8 kiloqram metamfetamin, 200 qram tiryək və qayalıqların arasında gizlədilmiş iki bağlamanın içərisində 14 kiloqram 850 qram tiryək və 6708 ədəd metadon-40 həbi aşkarlanıb.

Bundan başqa, yanvarın 20-də "Astara" dövlət sərhədindən buraxılış məntəqəsində İran İslam Respublikasından Azərbaycan Respublikasına gələn İran vətəndaşı 1983-cü il təvəllüdlü Bani Bayrami Maghsood Rezaghilinin üzərinə baxış keçirilərkən onun daxili orqanlarından 71 qram metamfetamin və 137 qram heroin aşkarlanıb. Narkotik vasitələrin sifarişçisinin müəyyənləşdirilməsi və cinayət məsuliyyətinə cəlb edilməsi istiqamətində Dövlət Sərhəd Xidmətinin əməkdaşları tərəfindən keçirilmiş əməliyyat-axtarış tədbirləri nəticəsində yanvarın 21-də Azərbaycan Respublikasının vətəndaşları, Masallı rayon sakinləri 1969-cu il təvəllüdlü Hüseynov Mikayıl Mürvət oğlu və 1972-ci təvəllüdlü Əliyev Eldar Şakir oğlu saxlanılıblar.

Yanvarın 23-də saat 00:53 radələrində Dövlət Sərhəd Xidmətinin Sərhəd Qoşunlarının "Horadiz" sərhəd dəstəsinin xidməti ərazisində Füzuli rayonunun Bala-Bəhmənli kəndi ərazisindəki sərhəd zastavasının xidməti sahəsində dövlət sərhədini pozaraq İrandan Azərbaycana keçmiş Beyləqan rayon sakini, 1987-ci il təvəllüdlü, əvvəllər məhkum olunmuş Qəhrəmanov Elməddin Seyfəddin oğlu sərhəd pozucusu qismində saxlanılıb. Sərhəd pozucusunun üzərinə baxış keçirilərkən sellofana bükülmüş halda 1080 qram kokos tərkibli narkotik maddə, 5 qram marixuana və mobil telefon aşkarlanaraq götürülüb. Faktlarla bağlı müvafiq əməliyyat-istintaq tədbirləri davam etdirilir.

## Yanvarda 1763 mənzilə təbii qaz verilib

Cari ilin yanvar ayı ərzində çoxmərtəbəli binalar üzrə 1763 mənzildə təbii qazın açılması təmin olunub. "Azəriqaz" İstehsalat Birliyindən AZƏRTAC-a bildirilib ki, birlik çoxmərtəbəli binalara təbii qazın verilməsi istiqamətində fəaliyyətini davam etdirir. Görülmüş işlərin nəticəsində "Azəriqaz" bu ilin yanvar ayı ərzində hüquqi və fiziki şəxslərin müraciətlərini araşdıraraq, müvafiq sənədləri təqdim olunan çoxmərtəbəli binalar üzrə təbii qazın verilməsini təmin edib. Həmin binalarda ümumilikdə 1763 ailə yaşayır.

"Azəriqaz" təbii qazın satışı ilə məşğul olan bir qurum kimi zəruri sənədləri təqdim etmiş, bütün normativ-texniki və təhlükəsizlik tələblərinə cavab verən istənilən çoxmərtəbəli binanın ən qısa müddətdə "mavi yanacaq"la təmin olunmasında maraqlıdır.

## Artıq VVAQ üçün çox sənəd tələb olunmayacaq

Azərbaycanda vətəndaşlıq vəziyyəti aktlarının qeydiyyatı (VVAQ) üçün dövlət orqanları tərəfindən vətəndaşlardan tələb olunan sənədlərin sayı azaldılır. SİA-nın məlumatına görə, bununla bağlı Milli Məclisin dünən keçirilən iclasında Ailə Məcəlləsinə təklif edilən dəyişiklikdə öz əksini tapıb.

Məcəllənin hazırki variantına görə, vətəndaşlıq vəziyyəti aktlarının qeydiyyatı qeyd olunmalı faktları və ərizə verənlərin şəxsiyyətini təsdiq edən sənədlər təqdim edildikdə aparılır. Təklif edilən yeni dəyişikliyə əsasən isə bu sənədlər üzrə məlumatların elektron informasiya sistemlərindən əldə edilməsi mümkün olduğu hallarda həmin sənədlər şəxslərdən tələb olunmur. Dəyişikliklərin edilməsində məqsəd "Açıq hökumətin təşviqinə dair 2016-2018-ci illər üçün Milli Fəaliyyət Planı"nın icrası ilə bağlı tələb edilən rəsmi sənəd və arayışların sayının azaldılmasını təmin etməkdir. Ailə Məcəlləsinə yeni dəyişikliklər səsə qoyularaq qəbul edilib.

# Mirmahmud Mirəlioğlu Əli Kərimli barədə nə deyib?

*KXCP sədrindən keçmiş cəbhədaşına ağır ittihamlarını bir də xatırlayaq*



***AXCP sədri Əli Kərimli barədə, vaxtilə onunla bir cərgədə olmuş, lakin sonradan ağır xəyanətlərini anlayaraq, ondan uzaqlaşmış kifayət qədər müxalifətyönlü siyasətçilər var ki, onlardan biri də, KXCP sədri Mirmahmud Mirəlioğludur. Bu gün özünü xalqa "müxalifətin lideri" kimi zorla sırımağa çalışan Ə.Kərimlinin əsl sifəti və xisləti elə "AXC şinelindən çıxanlar" tərəfindən açıq-aşkar ifşa olunmaqdadır.***

Misal üçün, hələ 2000-ci ilin parlament seçkilərindən əsası qoyulmuş qarşıdurmalardan biri də, məhz Ə.Kərimli ilə M.Mirəlioğlu arasında yaşanmışdı. Həmin vaxtları xatırlayan KXCP sədri deyir ki, 2000-ci il seçkilərindən sonra mandatdan imtina haqda sənəd imzalansa da, sonradan AXCP sədri Ə.Kərimli öz imzasını geri götürərək, Elçibəy xəyanətinin ardınca, müxalifətə növbəti ağır zərbəsini vurdu. Bu isə düşərgənin parçalanmasına səbəb oldu. "Mən meydanda tək qaldım" deyən Mirəlioğlu bilavasitə Ə.Kərimliyə eyham vuraraq, bildirib ki, bir qrup "komsomolçu" ciddi-cəhdlə düşərgədəki ıçaqları əllərinə keçirməyə cəhd göstərərək, digər siyasi qüvvələrlə gizli iş birliklərinə gedirlər: "Onların çox böyük dəstəyi var idi. Bu məsələyə qeyd etdiyiniz kimi, ötəri qiymət vermək doğru deyil. Əgər söhbət "Yurd"dan gedirsə, yəqin ki, bilməmiş deyilsiniz ki, həmin qrupa ciddi dəstək var idi. Bunu bilirdik. Eyni zamanda, bu məsələ ilə bağlı Elçibəyin də xüsusi tapşırıqları olurdu. Biz təkid edəndə, bəy deyirdi ki, bunu buraxsam, başqaları götürəcək. Mən istəmirəm ki, yetişdirdiyim adamlar əlimdən çıxıb getsinlər. "Komsomolçu" dediyiniz insanlara sahib çıxanlar, onlardan siyasi və digər maraqlarını yerinə yetirmək üçün istifadə edirdilər. Bizim onlarla bacarmağımız məsələsində Elçibəyin başlanğıc üçün xeyir-duası olmadığına görə, sonrakı dövrlərdə çox şeylər baş verdi. Bu məsələ Elçibəyin iştirakı ilə keçirilən qurultayda pik nöqtəsinə çatdı. Qurultaydan bir neçə gün sonra ciddi məsələlər çıxdı ortaya".

### "Fondun pulları Elçibəyə qarşı təbliğata xərclənib..."

Söz yox ki, Ə.Kərimlinin əsas xəyanət zərbəsi birbaşa "liderim" dediyi Elçibəyə vurulurdu. Bu baxımdan, daha bir fakt budur ki, AXCP-yə mənsub maliyyələrin mənimsənilməsi, yaxud "Yurd" qruplaşmasının pullarını Elçibəyə qarşı xərcləmələri ilə nəticəsini tapıb. KXCP sədri deyib: "Məlumatınız olsun deyə, xatırladım ki, Azərbaycanda Demokratiyanın İnkişafı Fondu var idi. Müddəti keçib, bunları açıqlamaq olar. Bu, çox təhlükəli bir məsələdir. Həmin fondun Qərbdə, ABŞ-da olan nümayəndələri etiraf edirdilər ki, fondun pulları təyinatı üzrə xərclənməyib. Yəni həmin pulların böyük əksəriyyəti Elçibəyin əlehinə xərclənib. Sonrakı dövrlərdə, konkret olaraq, bu, etiraf olundu. Bu barədə sənədlər var. Neçə yüz min dollar birbaşa Elçibəyin əlehinə təbliğat aparılmasına xərclənib. Bu, ciddi məsələdir. Əgər bundan kimsə çox narahat olacaqsa, biz ortaya konkret fakt qoyub və məlumatlı adam çıxara bilərik. O zaman xaricdəki nümayəndənin etiraflarını ortaya qoyacağıq və bəlli olacaq ki, həmin pullar hara xərclənib? 1994-cü ilin yanvar ayında həmin "komsomolçu" dediyiniz şəxslər "Əbülfəz Elçibəy siyasi meyitdir" deyirdilərsə, kimə etimad edilməlidir, hətta rus dilində "stavkanı filankəsə edin" bəyanatı verirdilərsə, "İsa Qəmbər də bitib" fikirləri də səslənirdisə, demək, sıradan bir məsələ deyildi. Bu adamların arxasında çox ciddi maliyyə dayanırdı".

### "Bir də onda ayılırdılar ki, insanlara "Yurd"a qəbul üçün ərizə yazdırılır"

M.Mirəlioğlu "Yurd" qruplaşmasının AXC-yə nə qədər ağır zərbələr vurulduğunu təkrar edərək, onu da bildirib ki, bütün bunlar danılmaz faktlara əsaslanır. "Biz təşkilatın qorunub-saxlanması üçün mübarizə aparmışıq. Başqaları isə təşkilat daxilində öz qruplarını qoruyub-saxlamaq üçün çalışıblar. Etiraf edim ki, daxildə AXC-"Yurd" mübarizəsi gedib. Bu olub" deyən Mirəlioğlu əlavə edib ki, onlar, yəni Ə.Kərimli və qruplaşması təşkilatın nizamnaməsinə yox, öz qrup mənafelərinə xidməti və təşkilat liderinə - Elçibəyə xəyanəti ortaya qoyublar: "Bu da faktdır. Bunun ikinci bir adı yoxdur. Hətta bu məsələdən istədikləri qədər yararlanıblar. Həmin dövrdə bizim fıkirlərimizi - baş verənləri insanlara çatdırmaq çətinliyimiz var idi. Çətinliyin birincisi ondan ibarət idi ki, "sən də müavinsən, o da müavindir, səni də Elçibəy təyin edib, onu da" fikirləri hökmran idi. Bu məsələlər də çətinlik yaradırdı. İnsanları inandırmaq olmurdu. Bir də, onda ayılırdılar ki, insanlara "Yurd"a qəbul üçün ərizə yazdırılır. Hətta bayaq qeyd etdiyim qurultaydan sonra bu prosesi gücləndirdilər. Yanvarda qurultay oldu, fevralda üzvlərdən ərizələr alınmağa başladı. Yalnız bundan sonra cəbhəçilər anlayırdılar ki, təşkilatın daxilində qruplaşma var. Açıq şəkildə addım atmırdılar. Yalnız onu deyirdilər ki, təşkilatın daxilində bir neçə kollektiv üzv var. Misal üçün, Qadın Hüquqları Cəmiyyəti, "Yurd" İctimai Birliyi və digərləri var. Siyasi partiyaya çevrilləndən sonra onların imkanları genişləndi və bu istiqamətdə kurs dəyişildi. Çünki bizim cəbhəçilərin böyük əksəriyyəti AXC-nin AXCP-yə çevrilməsinin əlehinə idilər. Bu, siyasi tarixdir və siyasi qərar qəbul olundu. Bundan istifadə edib, onlar bizi qabaqladılar".

### "Əli Kərimlinin kiçicik bir etirafı lazımdır"

"Azərbaycan siyasətinin son 15 ilində hansı siyasi problemə, qarşıdurmaya, kompromata, qərəzə baxırsan, araşdırırsan onun arxasından Əli Kərimli çıxır" deyən Mirmahmud Mirəlioğlu əlavə olaraq bildirib ki, AXCP tarixində Əli Kərimli qədər pozuculuq fəaliyyəti, Ə.Kərimli qədər Elçibəy əlehinə gedən, bu məsələni təşkilatlanmış, mobil şəkildə təşkil edib, sonunda xəyanət yolu tutan ikinci bir adam olmayıb: "Bu, faktdır, tarixdir. Bu, mənim şəxsi mövqeyim deyil. Bu, Əli Kərimlinin fəaliyyətinin nəticəsi və adıdır."

Beləliklə, fakt budur ki, Ə.Kərimli siyasi arenada siyasi meyit kimi qaldıqca, daha çox üfunət qoxusu verməyə başlayır. Bu reallıq isə, həm də belə nəticəyə gəlməyə zəmin yaradır ki, o, hətta etiraf etməsə belə, vaxtilə onunla bir yerdə olmuş şəxslər hər şeyi bütün çılpaqlığı ilə ortaya qoyurlar. Necə ki, bunu edənlərdən biri də KXCP sədri Mirmahmud Mirəlioğludur...

**Rövşən RƏSULOV**

## "Əli Kərimlinin Rəsulzadə sevgisi yalandır"



"Elçibəyi təhqir etdirən Əli Kərimlinin Rəsulzadə sevgisi yalandır". Bunu SİA-ya açıqlamasında Bütöv Azərbaycan Xalq Cəbhəsi Partiyasının sədr müavini, QHT sədri Niyaməddin Orduxanlı deyib.

Partiya funksioneri öncə onu vurğulayıb ki, Məhəmmədəmin Rəsulzadə Cümhuriyyətin qurucularındandır. Çox böyük xidmətləri olmuş şəxsiyyətdir: "O, hər birimizindir, bütün Azərbaycan xalqınındır. Rəsulzadəni hər zaman hörmətlə anmaq vətəndaş olaraq bizim mənəvi borcumuzdur. Cənab Prezidentin 2018-ci ili Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi ilə bağlı "Cümhuriyyət İli" elan etməsi də həmin dövrə və qurucuIara verilən dəyərin ifadəsi idi. O baxımdan Rəsulzadə ilə bağlı istənilən şəxsin, ələlxüsus da radikal düşərgənin, Əli Kərimlinin, Cəmil Həsənlinin onun adından sui-istifadə edərək öz siyasi məqsədlərini reallaşdırmaq, manipulyasiya etmək, buna siyasi çalarlar vermək qətiyyətlə pislənilir. Rəsulzadəni öz çirkin siyasi məqsədlərinə qurban verənlər ən ağır ifadələrə layiq şəxslərdir.

Milli Azadlıq Hərəkatını quran, Azərbaycanın ikinci dəfə öz müstəqilliyini əldə etməsində böyük xidmətləri olan mərhum Əbülfəz Elçibəy xəyanət edən, "Azadlıq" qəzetində onu təhqir edən Əli Kərimli Rəsulzadəyə hörmət qoyarmı? Ə.Kərimlinin Rəsulzadə sevgisi nə qədər ola bilər? Siyasətdən kənar, tarixdən xəbərsiz olan gənclərə üzümü tutub deyirəm ki, Əli Kərimli barədə keçmiş xatirələri oxusunlar. Onun necə xəyanət etdiyini bilsinlər. Partiyanı parçalayan, pul verdiyi jurnalistlərin əli ilə insanları təhqir etdirən məhz Əli Kərimlidir".

N.Orduxanlı bildirib ki, Əli Kərimli Azərbaycanın bütövlüyü uğrunda mübarizə aparan Bütöv Azərbaycan Birliyinin bir iclasına belə qatılmayıb. Hər zaman bu qurumun fəaliyyətinə lağ edib, gözdən salmağa çalışıb: "Əli Kərimlinin Azərbaycan və Rəsulzadə sevgisi yalandır. O və ətrafında şəxslər bütün hallarda ictimai proseslərdə, mühüm hadisələrdə, matəm günlərində yalnız özlərinin məqsədlərini ortaya qoyublar. İndi də siyasətdən xəbəri olmayan 200-300 nəfərlə siyasi şou göstərməyə cəhd edirlər. Mən Əli Kərimlinin Vətən sevgisinə, tarixi şəxsiyyətlərə hörmət göstərməsinə, səmimiyyətinə qətiyyən inanmıram. Gənclər Əli Kərimlinin 20-30 il əvvəlki fəaliyyətini axtarışa versinlər və onun kim olduğunu, nə etdiyini öyrənsinlər. Bir faktı sizə danışım. Hazırda Qərbin kəşfiyyat orqanlarının xidmətində olan "jurnalist" Xədicə İsmayıl Əli Kərimlinin diqtəsi ilə Elçibəyin mətbuat konfransında ona bir sual verdi. Dedi ki, "Fazil Qəzənfəroğlu Naxçıvan bölgəsindəndir, Əli Kərimli isə Saatlıdan anadan olub. Siz F.Qəzənfəroğlunu eyni bölgədən olduğunuz üçün müdafiə edirsiniz. Yəni regionçuluq edirsiz".

Əbülfəz bəy isə Xədicə İsmayıla belə cavab verdi: "Mən 1974-cü ildə siyasi dissident olmuşam. Azərbaycana olan sevdama, müstəqillik və bütöv Azərbaycan istəyimə görə həbsə atılmışam. O vaxtdan indiyə qədər bir çox ittihamla rastlaşmışam. Ancaq məni yerliçilikdə suçlamayıb. Siz bütöv Turan arzusunda olan bir insanı regionçuluqda ittiham edirsiz". Bu ittihamı Xədicəyə məhz Əli Kərimli öyrətmişdi. Hamı bilir ki, Əli Kərimli ilə Xədicə İsmayılın qohumluq əlaqələri var. Fazil Qəzənfəroğlu müavin kimi Əli Kərimlinin partiya daxilində necə parçalanma mövqeyini tutmasını, sədr əleyhinə çalışmasını mətbuat orqanlarında yazırdı. Yəni Əli Kərimlini ifşa edirdi".

Onun sözlərinə görə, bu gün Əli Kərimli həm də mənəvi terrorla məşğul olur: "Mehman Hüseynov olayından şou düzəldənləri ifşa edən hüquq müdafiəçilərinə qarşı Əli Kərimli mənəvi terrora əl atdı. Fransada yerləşdirilən uşağı əlinə mətni yazıb oxutdurmaqla, hansı əxlaq sahibi olduğunu göstərdi. Hər kəs gördü ki, bu adam üçün heç bir dəyər qalmayıb. Vaxti ilə bir təşkilatda fəaliyyət göstərən insanlara ləkə atdı. Guya o insanların Ukraynada hansısa hadisə ilə qarşılaşdığı "faktını" göstərdi. Utanmadan insanlara çamur atır. Bu adamlar öz abırlarına söykənərək Əli Kərimlinin şantajına, böhtanına , terroruna cavab vermədilər. Sadəcə bunu demək istəyirəm ki, hər kəs bilsin ki, onuun üçün bütün dəyərlə ölüb. O, hakimiyyətə gəlmək arzusu ilə alışıb yanır. Qarşısında çıxan istənilən şəxsi əzməyə hazırdı".

Qeyd edək ki, 10 gündən çoxdur sosial şəbəkələr və başqa vasitələrlə Məhəmməd Əmin Rəsulzadənin ildönümünü "möhtəşəm aksiya"ya çevirəcəklərini bəyan edən "Milli Şura" adlı qurum, Müsavat, AXCP və digər partiyalar onun abidəsinin yanına cəmi 200-300 adam yığa biliblər.

**Ceyhun Rasimoğlu**

## Sürücülük vəsiqələrimiz xaricdə də tanınacaq

Azərbaycanda verilən sürücülük vəsiqələrinin xaricdə tanınmasına mane olan amil aradan qaldırılıb. SİA-nın məlumatına görə, bununla bağlı qanunvericiliyə dəyişiklik layihəsi Milli Məclisin dünən keçirilən iclasında müzakirə olunub.

Bildirilib ki, sürücülük vəsiqəsindəki məlumatlar ingilis dilində təkrarlanacaq. Hazırda qüvvədə olan sürücülük vəsiqələrində latın əlifbasında olmayan hərflərin - "ə", "ğ", "ö", "ü" işlənməsi vəsiqələrin xaricdə tanınmasına mane olur. Layihə səsvermeyə çıxarılaraq qəbul olunub.

## Əcnəbilər bank kartları vasitəsilə ölkədə 1,2 milyard manatlıq əməliyyat aparıb

2018-ci ildə Azərbaycana gələn xarici vətəndaşların bank kartları vasitəsilə apardıqları əməliyyatların dəyəri 1 milyard 278,4 milyon manat təşkil edib. AZƏRTAC xəbər verir ki, bu barədə İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin (İİTKM) "İxrac İcmalı"nın yanvar sayında bildirilir.

Hesabata görə, 2017-ci illə müqayisədə ötən il ölkəmizə gələn əcnəbilərin bank kartları vasitəsilə apardıqları əməliyyatların dəyəri 256 milyon manat və ya 25 faiz artıb. Dekabrda xarici vətəndaşların bank kartları vasitəsilə apardıqları əməliyyatlar 82,9 milyon manat təşkil edib və 2017-ci ilin eyni ayı ilə müqayisədə 6 faiz artıb. Qeyd edək ki, ötən il Azərbaycana dünyanın 196 ölkəsindən 2 milyon 849,6 min və ya əvvəlki illə müqayisədə 5,7 faiz çox əcnəbi və vətəndaşlığı olmayan şəxs gəlib.

# DEMOKRATİK DÖVLƏTDƏ KOLLEKTİV TƏLƏBLƏR İRƏLİ SÜRMƏK HÜQUQU

***Ulu Öndər Heydər Əliyev demokratik dövlət qurulduğunu deyirdi: “Biz humanist, demokratik dövlət qururuq, demokratik prinsiplər əsasında yaşamaq istəyirik. İnsan hüquqlarının, insan şəxsiyyətinin qorunmasına çalışacağıq. Ancaq gərək insan da dövlətin qanunlarına riayət etsin. Dövlətin qanunlarına əməl etməyən insan dövlətin qanunları əsasında cəzalanmalıdır. Başqa yol yoxdur. Biz özbaşınalığa, hərc-mərcliyə yol verə bilmərik”. Bu baxımdan, ölkəmizdə nəinki müəssisənin işçiləri, habelə filialın, nümayəndəliyin, digər struktur bölmənin işçiləri də kollektiv tələblər irəli sürmək hüququna malikdir. AR ƏM-in 262-ci maddəsinin dördüncü hissəsinə əsasən, işəgötürənin iqtisadi imkanlarına uyğun olmayan tələblərə yol verilmir.***

Tələblər iqtisadi imkanlarına uyğun olmadıqda işəgötürən bunu auditor rəyinə əsasən sübut etməlidir. “Auditor xidməti haqqında” AR-ın 1994-cü il 16 sentyabr tarixli Qanununa əsasən, audit-əmtəə istehsalı və satışı, xidmət göstərilməsi və iş görülməsi ilə məşğul olan təsərrüfat subyektlərində mühasibat uçotunun dəqiq və dürüst aparılmasının, mühasibat və maliyyə hesabatlarının müstəqil yoxlanılmasıdır. Auditor rəyi isə auditorun (auditor təşkilatının) imzası və möhürü ilə təsdiq olunmuş audit aparılan təsərrüfat subyektinin maliyyə vəziyyətinə, maliyyə-təsərrüfat əməliyyatlarının qanuniliyinə, illik mühasibat hesabatları maddələrinin doğruluğuna, mühasibat uçotunun ümumi vəziyyətinə verdiyi qiyməti əks etdirən və bütün hüquqi və fiziki şəxslər, dövlət hakimiyyəti və idarəetmə orqanları, habelə, məhkəmə orqanları üçün hüquqi əhəmiyyəti olan rəsmi sənəddir. İşəgötürən kollektiv tələblərin ona təqdim edildiyi vaxtdan 5 iş günü müddətində öz qərarını yazılı formada işçilərə və ya həmkarlar ittifaqları təşkilatına bildirməlidir. İşəgötürən kollektiv tələblərdən tam və ya qismən imtina etdikdə və ya tələblərə cavab verilməsini gecikdirdikdə, kollektiv əmək mübahisəsi başlanmış hesab olunur (AR ƏM-in 263-cü maddəsinin birinci hissəsi).Kollektiv sazişlərlə əlaqədar tələblərə isə bir ay müddətində baxılmalıdır. İşəgötürən kollektiv əmək mübahisəsinin başlanması haqqında 3 iş günü müddətində müvafiq icra hakimiyyəti orqanına məlumat verməlidir. Bu andan etibarən tərəflərin razılaşdırıcı üsullardan və tətillərdən istifadə etmək hüququ, müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini AR ƏƏSM həyata keçirir. AR ƏM-in 264-cü maddəsinə əsasən, kollektiv əmək mübahisələri bu Məcəllədə nəzərdə tutulmuş qaydada barışdırıcı üsullardan və tətillərdən istifadə etməklə həll olunur. Kollektiv əmək mübahisəsinin həll edilməsi üçün aşağıdakı barışdırıcı üsullardan istifadə oluna bilər:

* razılaşdırıcı komissiyadan;
* vasitəçidən;
* əmək arbitrajından (AR ƏM-in 265-ci maddəsi).
* Əldə edilmiş razılıq protokolla rəsmiləşdirilir (AR ƏM-in 265-ci maddəsi). Razılaşdırıcı komissiyada kollektiv əmək mübahisəsinə baxılması. Razılaşdırıcı komissiya kollektiv əmək mübahisəsinin həll edilməsi üzrə yaradılan ilk orqandır.

Belə komissiyanın həm müəssisədə, həm də onun hər hansı struktur bölməsində formalaşdırılması qanunla qadağan edilməmişdir. AR ƏM-in 266-cı maddəsinin birinci hissəsinə əsasən, razılaşdırıcı komissiya kollektiv əmək mübahisəsinin başladığı vaxtdan etibarən 3 iş günü müddətində yaradılır və işəgötürənin müvafiq əmri (sərəncamı, qərarı) və işçilərin nümayəndələrinin qərarı ilə rəsmiləşdirilir. Razılaşdırıcı komissiya bərabər hüquqlu əsasda tərəflərin sayca bərabər nümayəndələrindən təşkil edilir. Kollektiv əmək mübahisəsinə razılaşdırıcı komissiya tərəfindən onun yaradıldığı gündən 5 iş günü müddətində baxılmalıdır (AR ƏM-in 266-cı maddəsi). Razılaşdırıcı komissiyanı kollektiv danışıqların aparılması üzrə komissiya ilə qarışdırmaq olmaz. Bu orqanların hər ikisi işçilərin və işəgötürənlərin nümayəndələrindən formalaşdırılsa da, onlar fərqli vəzifələrə malikdirlər. Razılaşdırıcı komissiyanın başlıca və əsas vəzifəsini yaranmış mübahisələrə baxılması və bu mübahisə üzrə razılıq əldə etmək cəhdi təşkil edir. Razılaşdırıcı komissiyaının iş rejimini komissiya özü müəyyən edir. Komissiyada mübahisəyə baxılmasının gedişində komissiyanın üzvlərinə zəruri sənəd və materialları əldə etmək və mübahisənin həllinin bütün mümkün variantlarını sərbəst surətdə müzakirə etmək imkanı təmin edilməlidir. Razılaşdırıcı komissiyanın qərarı tərəflərin qarşılıqlı razılığı ilə qəbul olunur. Razılaşdırıcı komissiyada tərəflər qarşılıqlı razılığa gəldikdə, bu barədə protokol tərtib edilir. Əldə edilmiş razılıq tərəflər üçün məcburidir və protokolda nəzərdə tutulmuş müddətdə icra olunmalıdır. Qüvvədə olan əmək qanunvericiliyində razılaşdırıcı komissiyanın qərarının yerinə yetirilməməsinə görə, işəgötürənin və işçilərin nümayəndələri üçün heç bir məsuliyyət nəzərdə tutulmamışdır. Razılıq əldə edilmədikdə, fikir ayrılığı haqqında protokol tərtib edilir (AR ƏM-in 266-cı maddəsinin üçüncü hissəsi). Kollektiv əmək mübahisələrinin həllinin barışdırıcı üsullarından biri mübahisəyə vasitəçinin iştirakı ilə baxılmasıdır. Razılaşdırıcı komissiya kimi vasitəçinin iştirakı ilə kollektiv əmək mübahisələrinə baxılması barışdırıcı üsullarından biridir. Əgər razılaşdırıcı komissiya bərabərhüquqlu əsasda tərəflərin sayca bərabər nümayəndələrindən təşkil edilirsə, vasitəçi tərəflərin qarşılıqlı razılığı ilə mübahisənin nəticələrində marağı olmayan yüksək ixtisaslı və nüfuzlu şəxslərdən müəyyən edilir. Bu barışdırıcı üsulun xüsusiyyəti ondan ibarətdir ki, mübahisənin həllinə tərəflərdən asılı olmayan şəxs vasitəçi cəlb olunaraq, münaqişə iştirakçılarına onun həllinin bir, yaxud bir neçə variantını təklif edir. Bu variantlar tərəflərin nümayəndələrinin birgə, yaxud ayrıca iclaslarında müzakirə olunur və kollektiv əmək mübahisəsinin həlli haqqında sonrakı razılaşdırmanın əsası qismində çıxış edir. Vasitəçi qismində istənilən hər hansı müstəqil mütəxəssis çıxış edə bilər. Kollektiv əmək mübahisələrinin həlli variantlarını işləyib-hazırlayarkən, vasitəçi işəgötürəndən kollektiv əmək mübahisələrinə aid olan lazımi sənədləri və məlumatları tələb etmək hüququna malikdir. AR ƏM-in 267-ci maddəsinə əsasən, vasitəçi təyin edildikdən sonra 5 iş günü müddətində müəssisənin iqtisadi vəziyyətini, kollektiv danışıqlar üçün yaradılmış komissiyanın protokollarını, tərəflərin təkliflərini, habelə, zəruri olan digər sənədləri təhlil edib tərəflərin mövqelərinin barışdırılması variantlarını hazırlayır. Hazırlanmış variantlar dərhal tərəflərə təqdim edilir. Tərəflər 5 iş günü müddətində vasitəçinin iştirakı ilə təklif olunan variantları müzakirə etməlidirlər. Təklif olunmuş variantlardan hər hansı biri bəyənildikdə, mübahisə həmin variant əsasında həll olunmuş hesab edilir və bu barədə protokol tərtib edilir. Təklif olunmuş variantlardan heç biri qəbul edilmədikdə, fikir ayrılığı haqqında protokol tərtib edilir (AR ƏM-in 267-ci maddəsinin dördüncü hissəsi). Kollektiv əmək mübahisəsinə əmək arbitrajında baxılması. AR ƏM-in 268-ci maddəsinin birinci hissəsinə əsasən, əmək arbitrajı kollektiv əmək mübahisəsinin həlli üçün yaradılan müvəqqəti orqandır. O, kollektiv əmək mübahisəsinin əmək arbitrajının icraatına verilməsi barədə razılığın əldə edildiyi vaxtdan 5 iş günündən gec olmayaraq, tərəflərin birgə qərarı ilə yaradılır. Razılaşdırıcı komissiya kimi əmək arbitrajı da yalnız mübahisəyə baxılması dövründə fəaliyyət göstərir. Tərəflər əmək arbitrajının tərkibini seçməkdə tam sərbəstdirlər. Əmək arbitrajının tərkibi (3 nəfərdən az olmayaraq), reqlamenti, mübahisəyə baxılma yeri, müddətləri, arbitraja texniki yardımın təşkili tərəflərin qarşılıqlı razılığı ilə müəyyən olunur. Arbitrajın sədri arbitrlər tərəfindən öz sıralarından seçilir. Əmək arbitrajının tərkibinə mübahisənin nəticəsində maraqlı olmayan şəxslər - icra hakimiyyəti, bələdiyyə orqanlarının nümayəndələri, hüquq, əmək və sosial məsələlər üzrə mütəxəssislər və digər şəxslər daxil edilə bilərlər (AR ƏM-in 268-ci maddəsinin ikinci hissəsi).Əmək arbitrajının tərkibi ilə əlaqədar qanunvericiliyin əsas tələbi odur ki, tərkibə daxil olan şəxslərin mübahisəsinin nəticəsi ilə marağı olmasın. Əmək arbitrajının tərkibinə mübahisədə iştirak edən işçilərin və işəgötürənlərin nümayəndələrinin daxil edilməsi yolverilməzdir. Tərəflər əmək arbitrajının qərarlarının məcburiliyi barədə qabaqcadan razılığa gələ bilərlər. Tərəflər əmək arbitrajının qərarlarının məcburiliyi barədə qabaqcadan razılığa gəlmişlərsə, arbitrajın qərarı ilə mübahisə qəti həll olunmuş hesab edilir və mübahisənin davam etdirilməsinə yol verilmir. Əmək arbitrajında kollektiv əmək mübahisələrinə baxılma müddəti 7 iş günündən çox olmamalıdır. Zəruri hallarda kollektiv əmək mübahisəsinin həllinin barışdırıcı üsullarından istifadə olunması üçün AR ƏM ilə müəyyən edilmiş müvafiq müddətlər tərəflərin razılığı ilə uzadıla bilər. Əmək arbitrajı mübahisəyə aid olan lazımi sənədləri və məlumatları almaq hüququna malikdir. İşəgötürən razılaşdırıcı komissiyanın, vasitəçinin, əmək arbitrajının normal fəaliyyəti üçün zəruri iş şəraiti yaratmağa borcludur. Əmək arbitrajının qərarı səs çoxluğu ilə qəbul edilir və protokolla rəsmiləşdirilir. Tərəflər arbitrajın qərarı ilə razılaşmadıqda, bu barədə protokol tərtib edilir (AR ƏM-in 268-ci maddəsinin beşinci hissəsi). Tətil kollektiv əmək mübahisəsinin həllinin ifrat forması kimi. Barışdırıcı üsullarla yaranmış kollektiv əmək mübahisəsinin həllinə nail olunmadıqda, yəni işçilərlə işəgötürən arasında yaranmış kollektiv fikir ayrılığı tənzimlənmədikdə, bu zaman mövcud qanunvericilik tətil elan etmək imkanını nəzərdə tutur.

**Vahid Ömərov,**
**fəlsəfə üzrə fəlsəfə doktoru**




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə “İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması” istiqaməti çərçivəsində hazırlanıb*

## Tozağacı göbələyindən xərçəng xəstəliklərinə qarşı istifadə olunur



Ağacın gövdəsinə yapışmış kepkanı, çətiri, daha çox göbələyi xatırladan çıxıntının ağac göbələyi adlandırılması daha çox onun zahiri bənzəyişi ilə əlaqədardır. Çaqa adlanan tozağacı göbələyi öz başlanğıcını kiçik bir spordan götürür və ağacın sağlam hüceyrələri ilə qidalanaraq şişkinləşir. Meşədə əksər ağacların gövdəsində ona rast gəlmək olar, lakin onların içərisində təbabət üçün daha əhəmiyyətlisi tozağacı göbələyi hesab olunur. AZƏRTAC xəbər verir ki, tibbi ədəbiyyatda çaqa adlandırılan tozağacı göbələyindən yüz ilə yaxındır ki, xərçəng xəstəliyinin bir sıra formalarında dərman vasitəsi kimi istifadə olunur. Xərçəng şişləri orqanizmdəki hüceyrələrlə qidalanıb qol-qanad atdığı kimi, çaqa da ağacdakı sağlam hüceyrələr hesabına böyüyür. Bədxassəli şişlərin müalicəsində çaqadan istifadə olunması bəlkə də onların təbiətindəki uyğunluqdan irəli gəlir.

Çaqa ilə müalicə aparılanda konserv, kolbasa məmulatları, güclü təsirə malik ədviyyatlardan istifadə etmək qadağan edilir, xəstəyə süd-bitki mənşəli qidalarla pəhriz təyin olunur. Kiçik çanaq nahiyəsinin xərçəngi zamanı çaqanın dəmləməsi ilə imalə etmək məsləhət görülür. Çaqa preparatları bədxassəli şişlərin böyüməsini ləngidir, əhval-ruhiyyəni yaxşılaşdırır, tərləməni və ümumi zəifliyi azaldır, iştahanı artırır, həzmi yaxşılaşdırır. Müalicənin səmərəsi çox güman ki, piqmentlərin bioloji təsiri ilə əlaqədardır, çaqanın tərkibində olan manqan fermentlərinin fəallığının artması mühüm rol oynayır. Onun qeyri-onkoloji xəstəliklər əleyhinə tətbiq edilməsi də müsbət nəticə verir. Şirə ifrazının zəifləməsi ilə müşayiət olunan mədə xəstəliklərinin müalicəsində çaqanın tətbiqi xəstələrin ümumi vəziyyətini yaxşılaşdırır, ürəkbulanma və ağrını aradan qaldırır və bağırsağın fəaliyyətini normallaşdırır. Çaqa preparatları ilə uzun müddət fasiləsiz müalicə aparılanda bəzi xəstələrdə vegetativ sinir sisteminin oyanıqlığı müşahidə edilir. Preparatın miqdarını azaldanda və qəbulu dayandırılanda həmin təsir aradan qalxır.

## Şotlandiyada "xərçəng dərmanları yumurtlayan" toyuqlar yetişdirilib

Şotlandiyada tədqiqatçılar tərkibində bəzi xərçəng növləri ilə mübarizədə istifadə edilən dərmanlar olan toyuq yumurtaları əldə ediblər. Genetik modifikasiya olunmuş bu toyuqların "dərman yumurtaları" dərman şirkətlərinin satdıqları xərçəng preparatlarından 100 dəfə ucuz başa gəlir. BBC xəbər verir ki, mütəxəssislər bu yumurtaların kütləvi satışa çıxarılacağına ümid edirlər. Edinburq şəhərindəki "Roslin Technology" şirkətinin nümayəndəsi Liza Herronun bildirdiyinə görə, "bu cür yumurtaların əldə edildiyi toyuqlar üçün xüsusi hinlər düzəldilib və onlar normal şəkildə yumurtlayır. Əsas məsələ bu quşların yeminə əlavə olunan dərmanlar və onların genetik modifikasiyasının dəyişməsidir. Yumurtalarda olan zülallardakı dərmanlar isə apteklərdə satılanlardan 100 dəfə ucuz başa gəlir".

Alimlər bundan əvvəl də genetik modifikasiya olunmuş keçi südü və toyuq yumurtalarından müalicədə istifadə olunacaq zülallar alınacağını bildirmişdi. Məlum olduğu kimi, bəzi xəstəliklərin, o cümlədən xərçəngin əsas səbəbi orqanizmin müəyyən bir kimyəvi maddənin və ya proteinin istehsalını dayandırmasıdır. Toyuq yumurtalarındakı həmin maddələr orqanizmdə bu prosesi yenidən bərpa edə bilər. Burada başlıca amil toyuğun DNT-sinin və yumurtanın ağında olan maddənin dəyişməsidir. Tədqiqatçılar diqqəti insanın immun sistemindəki iki vacib proteinə yönəldiblər: Bunlardan birində - IFNalpha2 proteinində antivirus və xərçənglə mübarizə xassələri var. Digər CSF proteini isə hüceyrələrin özlərini bərpa etmələrinə kömək edir.

### ELAN

Azərbaycan Dövlət Pedaqoji Universitetinin Biologiya müəllimliyi ixtisası üzrə I kurs tələbəsi Miriyeva Elmira Yalçın qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

X X X

Azərbaycan Dövlət Pedaqoji Universitetinin TSP 1803B qrupu tələbəsi Məmmədova Lamiyə Yaqub qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.



## İspaniya kubokunda növbəti "El-Klassiko"!



Fevralın 1-də İspaniya kubokunun yarımfinal mərhələsinin püşkatma mərasimi keçirilib. Püşkatmaya əsasən, yarımfinal mərhələsində "Barselona" "Real Madrid"lə, "Valensiya" isə "Real Betis" ilə üz-üzə gələcək.

Qeyd edək ki, yarımfinalın ilk görüşləri fevralın 5-6-da, cavab qarşılaşmaları isə fevralın 27-28-də baş tutacaq. Turnirin final görüşü "Real Betis" klubuna aid olan "Benito Vilyamarin" stadionunda keçiriləcək.

## "Qalatasaray" konqolu futbolçunu transfer edib



İstanbulun "Qalatasaray" futbol klubu Belçikanın "Standart" komandasının konqolu müdafiəçisi Kristian Luyindamanı mövsümün sonunadək icarəyə götürüb. İstanbul klubunun saytında yer alan məlumata görə, "Qalatasaray" 25 yaşlı müdafiəçiyə görə Belçika təmsilçisinə icarə haqqı olaraq 3 milyon avro ödəyib. K.Luyindama klubda 27 nömrəli formada çıxış edəcək.

Müqaviləyə əsasən, İstanbul təmsilçisi yay transferi pəncərəsində konqolu müdafiəçini birdəfəlik transfer etmək hüququna sahibdir. Müdafiəçi 2017-ci ildən "Standart" klubunda çıxış edir. O, bu klubun heyətində 53 oyunda 7 qol vurub. Futbolçu cari mövsümdə isə 30 oyunda 3 dəfə fərqlənib.

## Eden Hazard Belçika millisində ən yaxşı futbolçu seçilib



İngiltərənin "Çelsi" klubunun futbolçusu Eden Hazard Belçika millisində 2018-ci ilin ən yaxşı oyunçusu seçilib. Xarici KİV-lərin yazdığına görə, azarkeşlər arasında keçirilən səsvermə nəticəsində 15 min nəfər "Çelsi"'nin hücumçusu Eden Hazarda səs verib. Bu sorğuda ikinci yeri Almaniyanın "Borussiya" komandasının futbolçusu Aksel Vitsel (3 min 800 səs), üçüncü yeri isə İngiltərənin "Mançester Siti" klubunda forma geyinən Kevin De Brüyne (2 min səs) tutub. Qeyd edək ki, Belçika millisi 2018-ci ildə Rusiyada keçirilən dünya çempionatının bürünc mükafatçısıdır.

## "Barselona" Emersonun transferi üçün "Atletiko Minero" ilə razılığa gəlib



İspaniyanın "Barselona" futbol klubu müdafiəçi Emersonu Braziliyanın "Atletiko Minero" komandasından transfer edib. Klubun saytında yer alan məlumata görə, 20 yaşlı müdafiəçi ilə 2024-cü ilin yayınadək qüvvədə olan müqavilə imzalanıb. Emerson Kataloniya təmsilçisinin heyətinə cari ilin iyununda qoşulacaq. "Barselona" bu transferə görə Braziliya klubuna 12 milyon avro ödəyib. Cari mövsümdə "Atletiko Minero"nun heyətində 23 oyunda meydana çıxan müdafiəçi bir qol vurub.

## Dakar-2020 marafonu Afrikada keçirilə bilər

"Dakar" ralli-marafonu yenidən Afrika qitəsinə qayıda bilər. AZƏRTAC "Auto Bakkie Race" resursuna istinadla xəbər verir ki, yanvar ayında keçirilmiş marafon zamanı Anqola Avtomobil İdmanı Federasiyası 2020-ci ildə rallinin Anqola və Namibiyada keçirilməsinin mümkünlüyü məsələsini "Dakar" ralli-marafonunun rəhbərliyi ilə müzakirə edib.


*Baş redaktor:*
**Bəhruz Quliyev**
*Baş redaktorun müavinləri:*
**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
*Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.*

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 5500**